№ 277 ISSN 1027-3875 15 noyabr 2009

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Yəmən HAŞIMOVA
Fotomüxbir:
Könül ƏLİYEVA
Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Yemen HASHIMOVA
Photoreporter:
Konul ALIYEVA

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə



İsaxan İSAXANLI **10**
TƏLƏBƏLƏR TƏLƏBƏLƏRİN GÖZÜ VƏ SÖZÜ İLƏ



Bəhlul ABDULLA
"KİTABİ-DƏDƏ QORQUD"DA QANTURALI HƏQİQƏTİ **14**



Ирина ЛУКЬЯНОВА 24
ДВЕ ПРИСТАНИ ВЕЛИКОГО АЛЬБЕРТА



Ərşad MƏHƏRRƏMLİ
ƏLİ KƏRİM POEZİYASI HAQQINDA BİR NEÇƏ SÖZ **27**



By Bruce Crumley **29**
WHY FRANCE IS PUSHING ITS STUDENTS TO MASTER ENGLISH

Pərvin ABBASOV
TÜRK OĞLANLA AZƏRBAYCANLI QIZIN DÖRDBUCAQLI EŞQ HEKAYƏTİ **30**



USAQ DÜNYASI



33

UNİVERSİTƏ XƏBƏRLƏRİ

"NEWS AZ"A MÜSAHİBƏ

Oktyabrın 31-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlının "News Az"a (müxbir Cəmil Bayramlı) verdiyi müsahibə "University rektor: Azerbaijan's education system has improved far less than expected" adı ilə uyğun saytda çap olunmuşdur.

"MÖVLANƏ" CƏMİYYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

Oktyabrın 31-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı Təbrizdən gəlmiş "Mövlanə" cəmiyyətinin üzvlərini qəbul etdi. Görüşdə şer, sənət, fəlsəfə barədə söhbət açıldı və əməkdaşlıq ideyaları müzakirə olundu.

"ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN NÖVBƏTİ MƏŞĞƏLƏLƏRİ

Noyabrın 3-də Xəzər Universitəsinin ənənəvi "Elm və Sənət Məclisi" keçirildi. Məclisi giriş sözü ilə universitənin rektoru, professor Hamlet İsaxanlı açdı. O, "Elm və Sənət Məclisi"nin 31-ci məşğələsinin məruzəçisi, Sankt-Peterburq Ermitaj muzeyinin elmi işçisi, şumeroloq, professor Veronika Afanasyevanın elmi fəaliyyəti haqqında geniş məlumat verdi. Professor V. K. Afanasyeva "Şumer – bəşəriyyətin ən qədim mədəniyyətidir" mövzusunda geniş və maraqlı məruzə ilə çıxış etdi.

Məruzə ətrafında müzakirələrdə Azərnəşrin əməkdaşı İslam Sadiq, Azərbaycan Respublikasının Prezidenti yanında İdarəetmə Akademiyasının professoru Fuad Məmmədov, filologiya elmləri doktoru Firudun Cəlilov, Xəzər Universitəsi Tarix və Arxeologiya Departamentinin müdiri Roza Arazova, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı İlyas Babayev, AMEA Şərqşünaslıq İnstitutunun əməkdaşı Bəhlul İbrahimli, BDU-nun professoru Süleyman Əliyarlı və AMEA Tarix İnstitutunun əməkdaşı Solmaz Qaşqay çıxış etdilər.



***

Xəzər Universitəsi "Elm və Sənət məclisi"nin noyabrın 5-də keçirilən 32-ci məşgələsini giriş sözü ilə universitənin rektoru, professor Hamlet İsaxanlı açdı. V.K. Afanasyeva " Qədim mədəniyyətlər və müasir dövr" mövzusunda məruzə etdi.

Mərüzə ətrafında müzakirələrdə Nərgiz Axundova (BDU Şərqşünaslıq fakültəsi), Solmaz Rüstəmova-Tohidi (AMEA Şərqşünaslıq İnstitutu), Firəngiz Nəsirova (Xəzər Universitəsi), İslam Sadiq (Azərnəşr), Allahverdi Əlimirzəyev (AMEA Şərqşünaslıq İnstitutu), Eldar İsmayılov (BDU Tarix fakültəsi), Solmaz Qaşqay (AMEA Tarix İnstitutu) çıxış etdilər.



BEYNƏLXALQ DİASPOR MƏRKƏZİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

Noyabrın 5-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı Beynəlxalq Diaspor Mərkəzinin sədri İsmayıl Ağayevi və mərkəzin Avropa üzrə nümayəndəsi Azər Kərimovu qəbul etdi. Xarici ölkələrdə Azərbaycan mədəniyyətinin təbliğl ilə əlaqədar məsələlər müzakirə olundu.

"XARİCDƏ NECƏ VƏ HANSI UNİVERSİTETLƏRDƏ TƏHSİL ALMAQ OLAR?"

Noyabrın 6-da Xəzər Universitəsində Kaspi Təhsil Mərkəzinin təşkilatçılığı ilə Böyük Britaniya universitetlərinin nümayəndələri tərəfindən tələbələr üçün "Xaricdə necə və hansı universitetlərdə təhsil almaq olar?" mövzusunda seminar keçirildi. Kaspi Təhsil Mərkəzinin Xaricdə təhsil şöbəsinin rəhbəri Emin Əmrullayev seminarı açaraq, xaricdə təhsil haqqında ətraflı məlumat verdi. Böyük Britaniyanın Glazgow, East Anglia kimi tanınmış universitetlərinin nümayəndələri Caroline Boddie (Glasgow Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı) və Nilu Rashidova (East Anglia Univeristetinin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı)) təmsil etdikləri ali təhsil müəssisələri haqqında geniş danışdılar və Böyük Britaniyada təhsil almaq arzusunda olan tələbələrin suallarını cavablandırdılar.

Sonda Emin Əmrullayev seminarın baş tutduğuna görə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlıya, müəllim heyətinə, tədbirin təşkilində fəallıq göstərən Xəzər Universitəsi Humanitar və sosial elmlər fakültəsinin üçüncü kurs tələbəsi Sevinc İskəndərovaya və tələbələrə təşəkkürünü bildirdi.

"ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN NÖVBƏTİ MƏŞĞƏLƏLƏRİ

Noyabrın 10-da Xəzər Universitəsinin "Elm və Sənət məclisi"nin 33-cü məşğələsi keçirildi. Məşğələdə çoxlu sayda elm adamı və müxtəlif universitetlərin tələbələri iştirak edirdilər. Məşğələni giriş sözü ilə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı açaraq, Türkiyədən dəvət edilmiş, Diyanət Vəqfinin Dini Araşdırmalar Mərkəzinin əməkdaşı, Dr.Tahsin Görgün haqqında geniş məlumat verdi. Dr.Tahsin Görgün "İslam və Qərb Mədəniyyətinin müqayisəsi" mövzusunda məruzə etdi.

Məruzə ətrafında müzakirələrdə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı Bəhlul İbrahimli, BDU-nun professoru Rafiq İsmayılov, məşhur cərrah və türkoloq Cavad Heyət, AMEA Şərqşünaslıq İnstitutunun əməkdaşı Solmaz Rüstəmova-



Tohidi, Xəzər Universitəsinin müəllimləri Vurğun Əyyub və Ağalar Məmmədov çıxış etdilər.

***

Noyabrın 12-də Xəzər Universitəsində "Elm və sənət məclisi"nin 34-cü məşğələsi keçirildi. Məşğələdə alimlər və mütəxəssislər, BDU-nun ilahiyyat fakültəsinin, İslam Universiteti, Qaqqaz Universiteti və Xəzər Universitəsinin tələbələri iştirak edirdilər.

Məşğələni giriş sözü ilə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı açaraq, " Qlobal perspektivdən İslam və müasirlik" mövzusunda Dr. Tahsin Görgünün məruzə edəcəyini bildirdi. Mövzu ilə bağlı məslisdə iştirak edənlərə geniş məlumat verəndən sonra sözü T.Görgünə verdi. Məruzə iştirak edənlər tərəfindən maraqla qarşılandı.

Məruzə ətrafında geniş müzakirə oldu. İştirakçılardan Ağalar Məmmədov (Xəzər Universitəsi), Elməddin Əlibəyzadə (AMEA Şərqşunasliq institutu), Esmeralda Həsənova (AMEA-nın Şərqşunaslıq institutu), Zülfiyə Vəliyeva (Xəzər Universitəsi), Vurğun Əyyub (Xəzər Universitəsi), Akif Köten (BDU İlahiyyat Fakultəsi), Rəis Rəsulzadə (APU), Teymur Quluyev (Strateji Araşdırma Mərkəzi) çıxış edib, mövzuya aid rəy və mülahizələrini bildirdilər.

AVRASİYA REGİONUNDA BİLİK MƏRKƏZİ (KNOWLEDGE HUB) AÇILMASI LAYİHƏSİ



Noyabrın 10-da Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı ABŞ-ın Nyu-York şəhərindəki Revenue Watch İnstitutunun direktor müavini Suneeta Jan Kaimal'ı qəbul etmişdir. Görüşdə Avrasiya regionunda Bilik Mərkəzi (Knowledge Hub) açılması layihəsi, Xəzər Universitəsinin adı çəkilən institutun gələcək layihələrinə cəlb edilməsi imkanları müzakirə olunmuşdur. Görüşdə Xəzər Enerji Tədqiqatlar Mərkəzinin direktoru İnqilab Əhmədov və Əcnəbi Tələbələr və Mütəxəssislər Mərkəzinin direktoru Aytən Şadlinskaya iştirak etmişlər.

PRESTON UNİVERSİTETİNİN REKTORU İLƏ GÖRÜŞ



Noyabrın 13-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı Pakistandakı Preston Universitetinin rektoru Əbdul Basiti qəbul etdi. Görüşdə təhsil ilə bağlı geniş fikir mübadiləsi aparıldı və gələcək əməkdaşlıq məsələləri müzakirə olundu.

"HEYDƏR ƏLİYEV İRSİNİ ÖYRƏNİRİK" KURSUNDA TƏLƏBƏLƏRİMİZİN UĞURU



Noyabrın 10-da Gənclərin Milli Surasının konfrans zalında "Heydər Əliyev irsini öyrənirik" kursunun sona çatması ilə bağlı "dəyirmi masa" keçirildi. 6 ay davam edən bu kurs Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı və " Uğur" Gənclərin Maarifləndirilməsi İctimai Birliyinin təşkilatçılığı ilə təşkil olunmuşdu. Kursdan əsas məqsəd gəncləri, əsasən də gənc jurnalistləri Heydər Əliyev irsi haqqında məlumatlandırmaq idi.

Kursda Bakı Slavyan Universiteti, Azərbaycan Universiteti, Odlar Yurdu Universiteti, Bakı Dövlət Universiteti və Bakı Avrasiya Universitetinin tələbələri ilə yanaşı Xəzər Universitetinin tələbələri də – Humanitar ve sosial elmlər fakültəsinin jurnalistika ixtisası üzrə 3-cü kurs tələbələri – Fərid Ədalət, Ruslan Cəfərov və İlkin Ələkbərli iştirak etmişlər. Onlar kurs müddətində dahi lider Heydər Əliyev siyasi məktəbi haqqında bir çox məruzəçilərin, tarixçi alimlərin, millət vəkillərinin mühazirələrini dinləmiş, dəyərli məlumatlar əldə etmişlər. Həmçinin, müxtəlif tədbirlərdə, konfranslarda ve kurs müddətində intizamlı və fəal iştirakına görə hər üç tələbəmiz Gənclər və İdman Nazirliyi tərəfindən "Fəxri Fərmanla" mükafatlandırılmışdır.

Tədbir, həmçinin, kursun davamı və nəticəsi olaraq tələbələr tərəfindən qələmə alınmış məqalələrdən ibarət "Heydər Əliyev irsini öyrənirik" adlı kitabın təqdimatı ilə əlamətdar oldu. Kitabda kurs müddətində Heydər Əliyev irsi haqqında müzakirə olunan mövzular əhatə olunmuşdur. Fərid, İlkin ve Ruslanın da məqalələrinin çap olunduğu bu kitab Heydər Əliyev siyasi və mədəni irsinin müxtəlif sahələri haqqında çox dəyərli məlumatlarla zəngindir.

"Uğur" Gənclərin Maarifləndirilməsi İctimai Birliyinin sədri Ələvsət Allahverdiyev sona çatan kurs ve yeni nəşr olunan kitab haqqında ictimaiyyətə məlumat verdi. O, belə kursların daim təşkil olunmasının zəruri olduğunu vurğuladı.

Tədbirin sonunda Gənclər və İdman Nazirliyi, Səbail Rayon İcra Hakimiyyəti və KİV işçilərinin iştirakı ilə tələbələrə kursu müvəffəqiyyətlə bitirdiklərinə görə sertifikatlar verildi.

TƏLƏBƏ MƏCLİSİ: SABİQ VƏ HAZIRKI PREZİDENTLƏRİN MƏKTUBLAŞMASI

Salam, Şəfəq xanım!

Siz, məncə, Xəzər Universitəsi Tələbə Məclisinin ilk prezidenti olmusunuz. Eyni zamanda, indiyə qədər yeganə xanım prezident də Siz olmusunuz. Bildiyimə görə, Sizin dövrünüzdə Tələbə Məclisi çox aktiv işləyib.

Açığı, Sizinlə yazışmaq, Tələbə Məclisinin prezidenti olduğunuz dövrdə Tələbə Məclisinin gördüyü işlər barəsində informasiya toplamaq istəyirəm. Ümumiyyətlə, o dövrdə Tələbə Məclisinin idarə heyəti barədə məlumatlar toplayıb nəşr etdirmək istəyirəm.

Xahiş edirəm, imkan olsa, cavab yazın.

Ən xoş arzularla



Pərviz Muradov,
Tələbə Məclisinin hazırkı prezidenti



Salam, Pərviz!

Məktubunuza görə təşəkkür edirəm. Xəzər Universitəsində Tələbə Məclisinin əvvəlki heyətinin xatırlandığı məni çox sevindirdi.

Doğrusu, "ilk" prezident olduğuma əmin deyiləm. Bildiyim qədər, Tələbə Məclisi Xəzər Universitəsi yarananda bir qədər sonra formalaşmışdır. Lakin mənim başçılıq etdiyim heyət Məclisin uzun fəaliyyətsizlik dövründən sonra bir araya gəldiyinə görə, bəlkə də, məni "ilk" prezident kimi xatırlayırlar.

"Yeganə xanım prezident" olduğumu eşitmək isə, açığı, məni təəssüfləndirdi. Nəzərə alaraq ki, mən universitəni artıq 10 ildən çox bir müddətdir bitirmişəm, bu, bizim xanım tələbələrin son illər fəaliyyətsizliyini və universitənin həyatından kənar qalmaq istəklərini nümayiş etdirir.

Bizim dövrdə Tələbə Məclisi, sizin qeyd etdiyiniz kimi, çox aktiv idi. Elə bir onu demək kifayətdir ki, məndən sonra Tələbə Məclisinin prezidentləri seçilən Emil Əliyev və Pərviz Təhməzov da mənim başçılıq etdiyim Məclisin heyət üzvləri idilər. Bu, o zaman Məclisin işində müəyyən davamlılığın və ənənələrin yarandığını göstərirdi.

Məclis bir neçə sektordan ibarət idi. O cümlədən təhsil, idman, mədəniyyət və s. Hər bir sektorun üzvləri həmin məsələlər üzrə professor və tələbə heyəti, eləcə də universitənin administrasiyası arasında əlaqələndirmə işi aparırdı. Məsələn, təhsil sektoruna başçılıq edən Nigar Əliyeva tələbələrin universitədəki tədris prosesinə dair rəylərini, istəklərini toplayır, onları akademik kafedraların müdiriyyətinə çatdırır, tələbələrin istəklərini real islahatlara çevirmək yollarını axtarırdı. Mədəniyyət sektoru rəngarəng tədbirlər hazırlayaraq, müxtəlif fakültələrin tələbələri arasında social əlaqələri inkişaf etdirir, universitənin, belə demək olsa, "ruhunu" formalaşdırırdı. Bu sektor həmçinin "Xəzər" mahnı və rəqs ansamblının fəaliyyətində iştirak edir, mədəni layihələrə nəzarət edirdi. İdman sektorunun üzvləri o vaxt ilk addımlarını atan "Xəzər" futbol komandasının təmas nöqtəsi idi, futbolçularımızın qayğıları ilə maraqlanır, məşğul olurdular.

Bir sözlə, layihələr kifayət qədər idi. Tələbə Məclisinin mütəmadi iclaslarında biz yeni ideyalar ortaya qoyur, universitənin tələbə heyətinin həyatının zənginləşdirilməsi və yaddaqalan olması barədə fikirlərimizi bölüşürdük.

Əlbəttə, bu prosesdə Natella xanım Barkayanın bizə yaxından köməyi, məsləhətləri və əvəzsiz dəstəyini qeyd etməsəm olmaz. Onun universitənin 2-ci mərtəbəsində yerləşən kiçik otağı həmişə Tələbə Məclisinin üzvləri ilə dolu olardı, orada səs-küy, şən və mehriban mühit vardı.

Onu da vurğulayım ki, bəzi tələbələrin düşündüyü kimi, Tələbə Məclisində fəallıq bizim dərslərimizə mane olmurdu. Əksinə, Məclisin hər bir heyət üzvü akademik cəhətdən öz fakültəsinin qabaqcılları sırasında idi.

Əgər mənim adımdan universitənin tələbə heyətinə bir mesaj çatdıra bilsəniz, bunları deyin ki, Tələbə Məclisində iştirakımız və birgə keçirdiyimiz vaxtlar bizim ən yaddaqalan xatirələrimizdəndir. Neçə-neçə yeni dost qazanmaqla yanaşı, bu fəallıq bizi gələcək karyeralarımızda zəruri olan idarəçilikdə sərişləndirmişdir.

Mən Milli Opera və Balet Teatrının ağzına qədər dolu olan auditoriyası qarşısında Tələbə Məclisinin prezidenti kimi çıxış etdikdən sonra, hətta, Birləşmiş Ştatların Konqres zalları da mənə kiçik görünürdü.

Pərviz, Sizə və həmkarlarınıza Tələbə Məclisinin işinin canladırılması səylərinizdə uğurlar arzu edirəm. Sabiq prezident kimi sizə həmişə əlimdən gələn köməyi yetirməyə hazıram.

Səmimi salamlarımla

Şəfəq MEHRƏLİYEVA,
"Xəzər" Universitəsinin
Humanitar elmlər fakültəsinin
1998-ci il məzunu

ELMİ-İNZİBATİ ŞURANIN İCLASI

Noyabrın 13-də Xəzər Universitəsi Elmi-İnzibati Şurasının iclası olmuşdur. İclasa universitənin rektoru, professor **Hamlet İsaxanlı** sədrlik etmişdir. İclasda:

Elmi-İnzibati Şuranın tərkibi;
Yeni mərkəzin yaradılması;
Vəzifəyə təyin olunma;
Elmi araşdırmalar haqqında;
Cari məsələlər müzakirə olunmuşdur.

Elmi-İnzibati Şuranın tərkibi haqqında universitənin prorektoru **Məhəmməd Nuriyev** məlumat verərək qeyd etdi ki, son illər universitənin idarəetmə sisteminin təkmilləşdirilməsi sahəsində bir sıra qərarlar qəbul edilib, müxtəlif tədbirlər həyata keçirilib. Hal-hazırda universitənin tədris və tədqiqat siyasətini müəyyənləşdirən, bu sahədəki fəaliyyətimizi dəyərləndirən Elmi-İnzibati Şuranın formalaşması prinsiplərinin təkmilləşdirilməsinə ehtiyac yaranıb. **Bu məsələ rektorluqda müzakirə edilmiş və aşağıdakı yanaşma təklif olunur. Şuranın tərkibi üç hissəyə bölünür: vəzifəyə görə şuraya birbaşa daxil edilən üzvlər; aparıcı mərkəzlərin, institutların və dəstək qurumlarının rəhbərlərindən seçilmiş üzvlər; fakültələrin təqdimatlarına uyğun olaraq şuraya daxil edilən üzvlər.**

Vəzifəyə görə şuraya rektor, prorektorlar, dekanlar, "Dünya" məktəbinin direktoru, kitabxana və informasiya xidmətləri bölməsinin rəhbəri, baş mühasib və Tələbə Məclisinin prezidenti daxil olurlar (10 nəfər). Hal-hazırda universitədə 30-a yaxın mərkəz, institut və dəstək qurumu fəaliyyət göstərir. Onların rəhbərlərindən 10 nəfəri rektorun təklifi ilə şuraya daxil edilir. Fakültələrə və "Dünya" məktəbinə 15 nəfərlik kvota verilir və bu onların fəaliyyəti və tələbələrin sayına uyğun olaraq bölünür.

Elmi-İnzibati Şuranın tərkibinin formalaşdırılması ilə əlaqədar təklif olunan yanaşma üsulunun təsdiq olunması haqqında qərar qəbul edildi.

Yeni mərkəzin yaradılması haqqında da M. Nuriyev məlumat verdi və qeyd etdi ki, universitənin çoxlu mərkəzlərinin sırasına biri də - **Psixoloji Məsləhət və Psixoterapiya Mərkəzi** daxil olmuş və fəaliyyətə başlamışdır. Sonra söz mərkəzin direktoru **Ülkər İsayevaya** verildi. O, şura üzvlərinə məlumat verərək bildirdi ki, Xəzər Universitəsi nəzdində yaradılmış Psixoloji Məsləhət və Psixoterapiya Mərkəzi Azərbaycanda zehni sağlamlığa kömək sahəsində atılan ilk addımlardan biridir və bu məqsədə xidmət edir. Mərkəz hər cür psixoloji problemləri olan müxtəlif yaşlı insanlara, şirkət və korporasiyalara kömək göstərə bilər. Qeyd etdi ki, Xəzər universitəsinin tələbələrinə pulsuz xidmət göstəriləcəkdir *(Mərkəz haqqında ətraflı məlumat "Xəzər Xəbər" jurnalının 31 oktyabr 2009-cu il tarixli nömrəsində və www.khazar.org saytında dərc olunmuşdur).*

Elmi-İnzibati Şura Xəzər Universitəsi nəzdində Psixoloji Məsləhət və Psixoterapiya Mərkəzinin yaradılması haqqında qərarı təsdiq etdi.

Vəzifəyə təyin olunma məsələsi ilə əlaqədar məlumat verən M. Nuriyev bildirdi ki, universitəyə bu il türkcə işlətmə ixtisasına tələbələr qəbul olunmuşdur. Onların təhsilini səmərəli qurmaq və Türkiyədən müəllimlərin dəvət olunmasını təşkil etmək üçün koordinator vəzifəsinə ehtiyac yaranmışdır. Bu vəzifəyə İntiqam Bəşirovun namizədliyi irəli sürülür. O, bakalavr pilləsini Azərbaycan Dövlət İqtisad Universitetində bitirmiş, Türkiyədəki Süleyman Dəmirəl Universitəsində magistr təhsili və Ph.D elmi dərəcəsi almışdır.

Elmi-İnzibati Şuranın qərarı ilə **İntiqam Bəşirov** türkcə işlətmə ixtisasının bütün səviyyələr üzrə koordinatoru vəzifəsinə təsdiq edildi.

Elmi araşdırmalar haqqında məlumatla universitənin rektoru **Hamlet İsaxanlı** çıxış etdi. Bildirdi ki, universitənin mərkəz və institutlarında elmi-tədqiqat işləri sahəsində müəyyən uğurlar əldə edilmişsə də, bütünlükdə bu iş lazımi səviyyədə deyil. Elmi-tədqiqat işlərinin ardıcıl və məqsədyönlü şəkildə aparılması lüzumundan danışan rektor bu sahədə təşkilatçılıq işlərinin gücləndirilməsinin zəruriliyini qeyd etdi. Nəzərə çatdırdı ki, Xəzər Universitəsi əməkdaşlarının beynəlxalq nüfuzlu (*citation index*) jurnallarda məqalələrinin çap olunmaması – bunun üçün xüsusi mükafat təyin edilsə də – böyük qüsurdur və bu sahədəki işlər xüsusilə fəallaşdırılmalıdır.

Elmi-İnzibati Şura müvafiq qərar qəbul etdi.

Cari məsələlər qismində universitə həyatının müxtəlif məsələləri müzakirə olundu.

Müzakirələrdə Numanitar və sosial elmlər fakültəsinin dekanı **Cabir Xəlilov**, Lüğət və ensiklopediya mərkəzinin müdiri **Tofiq Abasquliyev,** İngilis dili və ədəbiyyatı departamentinin müdiri **Eldar Şahgəldiyev** və başqaları çıxış etdilər.

Elmi -İnzibati Şuranın iclası sədrlik edən Hamlet İsaxanlının yekun sözü ilə başa çatdı.

YENİ NƏŞRLƏR

Jurnalımızın daimi müəlliflərindən olan Xəlil Məcidoğlunun yeni yaradıcılıq məhsulu – "Həyat lövhələri - 2" adlı irihəcmli kitabı "Təhsil" NPM-də çapdan çıxmışdır. "Həyat lövhələri", "Tanrının seçimi", "Xatirələr", "Və başqa yazılar" başlıqları altında verilmiş yazılarda həyatın müxtəlif sahələrindən götürülmüş lövhələr, xatirələr, məşhur insanlar haqqında fikirlər, ədəbi düşüncələr, müsahibələr və həyata baxış kitabda öz əksini tapmışdır. Müəllifin kitab haqqında dolğun təsəvvür yaradan ön sözünü oxucularımıza təqdim edirik.



MÜƏLLİFDƏN

Allah sənə rəhmət eləsin, ata!

"Həyat lövhələri"nin ilk nəşrindən iki il keçir. Bu müddət ərzində dostlarımdan, tanışlarımdan, həmkarlarımdan, çoxsaylı internet oxucularından elektron ünvanıma səmimi məktublar göndərilib, ürək sözləri deyilib, təkliflər verilib, arzular bildirilib. Bu diqqətə, səmimiyyətə, verilən qiy-mətə görə hamıya, xüsusilə, dəyərli yazarlarımız Almaniyada yaşayan Orxan Arasa və Faiq Hüseynbəyliyə minnətdarlığımı bildirirəm.

Kitabın yeni nəşrində əv-vəllər dərc olunmuş, lakin ilk nəş-rə daxil edilməmiş yazılar, "525-ci qəzet" və "Xəzər-Xəbər" toplusunda dərc olunmuş yeni yazılar öz əksini tapmışdır.

Mən ixtisasca riyaziyyatçı-mexanikəm. Elmi işlərim, ixtiralarım istehsalata tətbiq olunduğundan bir az da mühəndisliyim var.

İxtisasım üzrə 25 kitabın müəllifiyəm. Ədəbiyyat, publisistika sahəsində isə (əgər belə demək mümkünsə), bu, mənim ikinci kitabımdır. Yazmağa isə lap məktəb illərindən başlamışam. Həyatımda ən çox kağız, qələm qıtlığı çəkmişəm. Məktəbdə divar qəzetinin redaktoru olardım, "Azərbaycan pioneri" qəzetinə məqalələr, çaynvordlar, krossvordlar göndərərdim. Tələbəlik illərində "Azərbaycan gəncləri", "Molodyoj Azerbaydjana" qəzetlərində tələbə həyatı, təhsillə bağlı yazılarım dərc olunardı. İşləməyə başla-yandan sonra "Bakı", "Baku", "Vışka", "Kommunist", "Bakinski raboçi" qəzetləri ilə əməkdaşlıq etməyə başladım. Uzun illər "Baku" axşam qəzetində "Naukaproizvodstvu" rubrikasını aparmışam. Görkəmli jurnalist, baş redaktor N.İmanquliyevin rəsmi təşəkkürlərini qazanmaq mənim üçün çox qiymətli idi.

"525-ci qəzet"in fəaliyyətə başlaması mənim yazılarımın məzmununu dəyişdi.

Bu kitabın əsasını "525-ci qəzet"də və "Xəzər-Xəbər" toplusunda dərc olunmuş yazılarım təşkil edir. Müəyyən bir qismi isə digər mətbuat orqanlarında dərc olunmuş yazılardır.

Mən fikirləşirdim ki, əgər mənim yazılarım bu qəzetdə Bəxtiyar Vahabzadə, Elçin Əfəndiyev, Anar kimi korifeylərin, Bəsti Əlibəyli, İradə Tuncay, Afaq Məsud kimi professional yazarların yazıları ilə bir yerdə verilirsə, deməli, bu yazılarda "nəsə var". Bu "nəyinsə olması"nı mən Rəşad Məcidin bu kitaba xeyir-duası kimi qəbul etdim. Rəşad Məcidin xeyir-duası isə mənim üçün ən böyük stimuldur. Rəşad Məcid haqqında korifeylərin, tanınmış insanların dediklərinə yaxın nəsə təzə bir söz demək çətindir. Məni həmişə Rəşad Məcidin ağsaqqal təmkinliyi, müdrikliyi təəccübləndirib (bəlkə bu sözləri də kimsə deyib). Bu ağsaqqallıq onun yaşından deyil, böyüklüyündən, şəxsiyyətindən irəli gəlir.

Kitabın "Həyat lövhələri" adlanması da təsadüfi deyil. Həyatın hər anı bir lövhədir. Rəssam bu lövhələri öz fırçası ilə yaradır, mən isə qələmimlə göstərmək istəmişəm.

Mən nə yazıçı, nə publisist, nə də jurnalist iddiasındayam. Mən riyaziyyatçıyam - bu da bəsimdir. Yazdıqlarım isə mənə əziz olan insanları xatırlamaq, həyatımın ən mənalı, yaddaqalan anlarını bir də yaşamaq üçündür. Oxucularım fikirləşsələr ki, bu kitab özüm haqqındadır, haqlı olarlar. Əgər fikirləşsələr ki, mən bu kita-bı özümü tərifləmək, tanıtmaq üçün yazmışam, günah işlətmiş olarlar. Mən yalnız olanları, həqiqəti yazmışam. Həqiqəti yazmaq, nə qədər tərif kimi səslənsə də, heç vaxt qəbahət olmayıb.

Sonda, adı 525-ci, özü birinci olan qəzetin mehriban ya-radıcı kollektivinin Rəşad Məcid başda olmaqla bütün üzvlərinə, baş redaktor professor Hamlet İsaxanlı başda olmaqla "Xəzər Xəbər" toplusunun işgüzar kollektivinə mənə göstərdikləri xoş münasibətə görə səmimi minnətdarlığımı bildirirəm.

Dostum, həmkarım, bu kitabın yazılmasında mənə mənəvi dəstək verən, texniki köməkliyini əsirgəməyən professor Adil Əzizova və əziz Namiq Heydərova təşəkkür etməyi özümə borc bilirəm.

Kitabın kompüter tərtibatçıları oğlum Elçinin və Natiqin zəhmətini qeyd etsəm, Allaha da xoş gedər.



TƏLƏBƏLƏR TƏLƏBƏLƏRİN GÖZÜ VƏ SÖZÜ İLƏ

Hər hansı bir ali məktəbdə yüksək keyfiyyətli təhsil vermək üçün bir sıra vacib amillərə xüsusi diqqət yetirilməlidir. Müasir təhsil modelinin və tədris proqramlarının tətbiqi, tələbələrin bilik səviyyələrinin müasir metodlarla qiymətləndirilməsi, geniş beynəlxalq əlaqələrin yaradılması, zəngin və müasir kitabxana sisteminin qurulması, tələbə-müəllim münasibətlərinin yeni ab-havada qurulması, tədris prosesində şəffaflığın təmin olunması, təhsildə korrupsiya elementlərinə qarşı ciddi mübarizə aparılması, ali məktəblər arasında halal rəqabət atmosferinin yaradılması və s. belə amillərdəndir.

Bu yolda ən vacib amillərdən biri kimi ali məktəblərdə yüksək səviyyəli kadrların işə cəlb edilməsi qeyd edilməlidir. Uzun illər Azərbaycan təhsil sistemində, o cümlədən ali məktəblərdə tələbələrin müəllim seçimində heç bir rolu olmamışdır. Konkret sayda tələbələr müəyyən qruplara yerləşdirilmiş, hər qrup üçün müəllim müəyyənləşdirilmiş və tələbələr müəyyən edilmiş müəllimdən dərs almaq məcburiyyətində qalmışlar.

Sovetlər Birliyi dağıldıqdan sonra həyatın bir çox sahələrində olduğu kimi təhsildə də müəyyən dəyişikliklərə ehtiyac duyulmağa başladı. Belə dəyişikliklərdən biri ali təhsildə özəl bölmənin, başqa sözlə, özəl ali məktəblərin yaranması oldu. Özəl ali məktəblərin yaranması ilə Azərbaycan təhsilində bir sıra məsələlərdə olduğu kimi tələbə-müəllim münasibətlərində də yeni abu-hava formalaşmağa başladı. Tələbələrlə müəllimlər arasında quru, yuxarıdan aşağıya istiqamətlənmiş münasibət elementləri yavaş-yavaş təhsil verənlə təhsil alan arasında demək olar ki, bərabər hüquqlu münasibət çalarları almağa başladı. Belə münasibətlərin formalaşmasında Azərbaycanda ilk özəl ali məktəb olan Xəzər Universitəsinin kifayət qədər rolu vardır. Məhz Azərbaycanda ilk dəfə olaraq kredit təhsil modelini həyata keçirməyə başlayan (bu məsələdə hətta Avropanı təxminən 10 il qabaqlayan!) Xəzər Universitəsində müəllim seçimində tələbələr də bir tərəf kimi çıxış etməyə başladı. Belə ki, eyni fənni tədris edən müxtəlif müəllimlər arasında seçim etmək təcrübəsi həyata keçirilməyə başlandı. Bir qədər sonradan tələbələr müəllim seçiminə daha bir yolla təsir etmək imkanı qazandılar. 1997-ci ildən etibarən "Xəzər" də daha bir yenilik həyata keçirildi. Bu yenilik müəllimlərin seçimində tələbələrin fikirlərinə söykənmək, müəyyən mənada müəllimləri tələbələrin gözü ilə süzgəcdən keçirərək seçmək təcrübəsi idi. Bu prosesin effektiv həyata keçirilməsi məqsədilə rəhbərlik tərəfindən müəyyənləşdirilmiş suallar üzrə tələbələr müəllimlərin fəaliyyətini 5 ballıq sistemlə qiymətləndirir və müəllimlər haqqında öz yazılı fikirlərini bildirirlər. Obyektivliyi tam təmin etmək məqsədilə proses tamamilə anonim şəkildə aparılır. Artıq, təxminən, 13 ildir ki, Xəzər Universitəsində "anonim tələbə sorğusu" keçirilir. İlk vaxtlar belə bir sorğunun keçirilməsinə narazılıq edən müəllimlərin sayı kifayət qədər olsa da, zaman keçdikcə hər şey öz yerini aldı və indi əksər müəllimlər bu sorğunun keçirilməsinə normal münasibət bəsləyir. Tələbələr tərəfindən qeyd edilmiş məqamları aradan qaldırmaq istiqamətində öz üzərində xüsusi işləyən müəllimlərimiz də az deyil. Aparılmış sorğular universitə nəşriyyatında dərc edilir və kitabxanada saxlanılır.

"Anonim tələbə sorğusu" keçirilməsinin əsas məqsədi "müəllimləri tələbələrin gözü ilə" süzgəcdən keçirmək olsa da, məhz həmin sorğular "tələbələri tələbələrin gözü və sözü ilə" süzgəcdən keçirmək üçün də dəyərli materiallarla doludur. Bu yazının məqsədi də məhz budur. Biz bu yazıda son 2 ildə keçirilmiş "anonim tələbə sorğusu" vasitəsilə, tələbələrin yazdığı materiallardan istifadə edərək, müəllimlər haqqında deyil, məhz tələbələr haqqında, onların mədəni səviyyəsi, dünyagörüşü, müəllimlərinə hörmət və məhəbbəti və s. məqamlar haqqında fikir yürütməyə çalışacağıq.

Yumor hissi

Məlumdur ki, acı həqiqəti söyləmək, onu qarşıdakına çatdırmaq üçün ən təsirli yollardan biri yumordur. Zaman-zaman birbaşa deməklə heç bir

nəticə əldə edə bilmədiyimizləri öz ünvanına məhz guya dolayı yolla, əslində isə ən kəsə yolla - yumorla çatdırmağa çalışmışıq. Təsadüfi deyildir ki, ölməz əsərlər yaratmış Cəlil Məmmədquluzadə dedikdə yadımıza ilk olaraq onun başqa əsərləri deyil, məhz "Molla Nəsrəddin" düşür. Görəsən, "Molla Nəsrəddin"dən tələbələrimizə bir şey keçibmi? Beləliklə, tələbə sorğusunda "yumor ovuna" çıxdıq.

"Belə getsə, biz universiteti bitirəndən sonra əsl ərəb olacağıq" (Spring 2009, səh.1). Ərəb dili müəllimi Abdullah Abbas Suleyman haqqında öz xoş fikrini tələbələrdən biri maraqla belə ifadə etmişdir.

"Bu müəllimənin beyni də elə bil kompüterdi. Dərsə görə demirəm, amma dərsdən qaçanları yaxşı yadında saxlayır" (Spring 2009, səh.77). Burada bir əhvalat yadıma düşdü. Danışmasam olmaz. Onu da deyim ki, bu, lətifə deyil, əhvalat iştirakçılarının hər ikisi mənim yaxın tanıdığım insanlardır: "Bir dəfə tanınmış, hörmətli professorlardan biri kitabla heç maraqlanmayan bir dostuna yenicə yazdığı bir kitabını bağışlayır. Bir müddət sonra həmin dostlar görüşürlər və dostu "çox əla kitabdır, gözəl kitabdır, malades" deyə professoru möhkəm-möhkəm tərifləyir. Professor yarıciddi, yarızarafat "sən allah, kitabı axıracan oxumusan?" – deyə dostundan soruşur. Dostu cavab verir: "Mən kitabın üzünü deyirəm, sən nəyi deyirsən?".

"Mən semestr boyu bu müəllimdən ancaq "stop talking" sözünü eşitdim" (Spring 2009, səh.116). Bu məqam da mənim yadıma bir əhvalatı saldı: "Səhv etmirəmsə, 1995-1996-cı illər idi. O zaman bizim universitənin Gəncədə hazırlıq kursları var idi. Tələbələr orada əsasən ingilis dilini öyrənirdilər ki, Bakıya gələndə işləri bir az asan olsun. Həmin kurs cəmi 2 il mövcud oldu. Buraya gələn tələbələrin ingilis dili üzrə səviyyəsi bizi qane etmirdi. Vəziyyətin yerində araşdırılması və lazım gələrsə, kursların bağlanması üçün Gəncəyə bir komissiya göndərilməsi qərarlaşdırıldı. Komissiyaya ingilis dili müəllimi, rektor köməkçisi Əfqan Abdullayev və mən daxil edildik. Gəlib Gəncəyə çatdıq. Orada dərs deyən müəllimlərin və tələbələrin valideynlərinin iştirakı ilə bir toplantı keçirdik. Əsasən valideynlər danışır, biz dinləyirdik. Valideynlər kursun bağlana biləcəyi fikrinə etiraz edir, tələbələrin zəifliyinin səbəbini ingilis dili müəllimlərinin özlərinin zəif olmasında görürdülər. Valideynlərdən biri bir ingilis dili müəllimi haqqında sərt danışdı və fikrini belə tamamladı: "Burada hansı ingilis dilindən danışmaq olar ki, filan müəllim (o müəllimin adını çəkdi; təəssüf ki, həmin müəllimin adını unutmuşam, yoxsa mütləq yazardım; amma onu deyim ki, xeyli yaşlı bir kişi müəllim idi) "to be" ilə "does" dan başqa heç nə bilmir". Hamı gülüşdü. Əfqan müəllim də bu fikrə güldü və yarızarafat, yarıciddi dedi: "Vallah, bir müəllim ki, ingilis dilində "to be" ilə "does"ı yaxşı bilir, ondan şikayətlənməyə əsas yoxdur". Bu yumoru başa düşənlər yenə gülüşdülər.

"Mehmet müəllimin dərsində hamımız yatırıq. Allah ondan razı olsun, onun dərsi olmasa, yorğunluğumuzu necə çıxararıq, heç bilmirik" (Fall 2008, səh.92). "Milana müəllimə yaxşı müəllimdir... amma bilmirəm, nəsə məndən zəhləsi gedir... Mənə elə gəlir ki, hamısı çox istəməyindəndir" (Fall 2008, səh.93). "Üzünü az görmüşük, amma yaxşı insana oxşayır"; "Allah canını sağ eləsin, 4 ayda 6-7 dəfə üzünü gördük." (Spring 2009, səh.6). "Xəyalə xanımın maaşını qaldırmağınızı tələb edirəm. Bu xanım universitetə ən çox xeyir verən müəllimədir. Hər semestr 40-dan artıq tələbəni kəsərək, universitetin büdcəsinə minlərlə dollar xeyir verir" (Fall 2008, səh.79). "Allah "Xəzər" in müəllimlərinin canını sağ eləsin. Mənə yaxşı bal yazırlar" (Fall 2008, səh.153). "Çox yaxşı müəllimdir. Üzümə gülə-gülə 4 semestrdi məni kəsir" (Spring 2008, səh.22). "Dərdim çox böyükdür, danışsam qurtarmaz. Kseroks edən əmi var e, 1-ci mərtəbədə, ona təcili olaraq katibə lazımdır ki, arada onu yuxudan oyatsın... Samir ancaq qızların kserokslarını çıxarır. Oğlanlarınkı qalır. Belə olmaz" (Fall 2008, səh.160).

Bu fikirləri oxuyarkən bunu yazan tələbənin yumor hissinə "afərin" deməyə bilmirsən. Afərin sənə, ey adıbilinməz tələbə!

Məntiq

"Ağalar müəllim-bizi dəryalara qərq edən müəllim" (Spring 2009, səh.5). Tələbənin fikrini anlamaq bir qədər çətindir. Əslində, "dəryalara qərq etmək" adamı yazıq etmək, dərdə-qəmə batırmaq mənası verir. Tələbənin Ağalar müəllim haqqında fikirlərini tam oxuduqda isə başqa xoş bir motiv hiss edilir. Tələbə öz fəlsəfə müəllimini adamı düşündürən, fəlsəfi fikrə daldıran bir müəllim kimi təsvir etmək istəmişdir. Yazdığı cümlə isə, əksinə!

"Rus dili dərsində rus sektorunun tələbələrinin olması az-sektor üçün ziyandır. Əgər bu dərs rus dilini bilməyənlər üçündürsə, burada rus sektorunun

uşaqlarının nə işi var? Bu heç də ədalətli deyil!" (Spring 2009, səh.24). "Hansısa sözün tərcüməsini soruşduqda ingilis dilində izah edir. Daha fikirləşmir ki, mən başa düşsəydim, ondan soruşmazdım" (Spring 2009, səh.54).

Tamamilə haqlı, ədalətli, məntiqli iradlardır.

"Bu müəllim dəhşətdi, dəhşət. Oxuduqlarımızla heç vaxt qane olmur. O istəyir ki, biz onun beynindəki cavabı verək" (Spring 2009, səh.28). "Müəllim deyir ki, "verdiyim açıq suallara elə cavab yazın ki, cavab mənim fikirləşdiyim kimi olsun. Ay müəllim, biz sizin nə fikirləşdiyininzi haradan bilək?" (Spring 2009, səh.64).

Təbii ki, tələbənin borcudur ki, suala doğru cavab versin. Müəllimin beynindəki cavab isə doğru cavabdır. Odur ki, tələbənin cavabı ilə (əgər cavab doğrudursa) müəllimin beynindəki cavab təxminən eyni olacaq. Burada söhbət cavabın məhz müəllimin beynində olan sözlər vasitəsilə ifadə olunmasından getmir.

"Fəlsəfə fənni boş bir fəndir. Fənnin yoxluğundan bilmirlər nə fənn versinlər". Tələbənin bu fikrinə elə oradaca başqa bir tələbə cavab verir. "Fəlsəfə yalnız kredit toplamaq üçün deyil, həm də özümüz üçün vacibdir" (Spring 2008, səh.4).

Qayğı

"Mən Afaq xanımın dərsinə girəndə çox sevinirəm. Afaq xanımın maaşını artırın" (Spring 2009, səh.2). "Hörmətli rektor! Bəhlul müəllim bizə deyir ki, yanvardan bizə dərs deməyəcək. Xahiş edirəm onu hərtərəfli təmin edin ki, bizə dərs desin" (Fall 2008, səh.23). "Cabir müəllim, çox xahiş edirəm ki, "Ərəb-5"i Elnur müəllimə verin. Bu semestr qəsdən "Ərəb-5"dən kəsiləcəm ki, gələn semestr Elnur müəllim tədris etsin" (Fall 2008, səh.36). "Bir də tez əsəbiləşməyin. Heç kimə yox eee, sizə yazıqdır" (Fall 2008, səh.133).

Əlbəttə, öz tələbəsindən belə qayğı görmək bir müəllim üçün xeyli xoş və sevindiricidir. Ümid edirik ki, bu fikirlər başqa müəllimlərimizi də, öz tələbələri tərəfindən belə qiymətləndirmə naminə, daha da ürəkdən çalışmağa ruhlandıracaq.

Kobudluq və mədəni səviyyə

Təəssüf ki, tələbələr öz müəllimləri haqqında bəzi hallarda elə ifadələr işlədirlər ki, onu dilə (qələmə!) gətirmək belə istəmirsən. Müəllimin də mənfi cəhətləri ola bilər, o da insandır. Amma müəllim haqqında belə tonda yazmaq, belə kobud sözlərdən istifadə etmək tələbəyə qəti başucalığı gətirmir. Mən burada bilərəkdən fikrin hansı müəllim haqqında deyildiyini yazmadan bəzi fikirləri misal gətirmək istəyirəm.

"Bu müəlliməni heç bəyənmirəm. Mələk donuna girmiş şeytandır" (Spring 2009, səh.28). "Zəhlə tökəndir" (Spring 2009, səh.40). "Adamlığı yoxdur... Elə bil divarla danışırsan... Başına daş düşsün" (Spring 2009, səh.49). "Bəzən gic-gic qanunlar çıxır" (Spring 2009, səh.139). "I hate you. Təkcə mən deyil, bütün universitet nifrət edir sizə" (Fall 2008, səh.9). "Bu universitetdə yalnız bu müəllimin insaniyyətdən xəbəri var" (Spring 2008, səh.56) və s.

Belə misalların sayı həddindən artıq çoxdur. Mən hələ bir qədər "toyagetməli" fikirləri seçdim.

Hədə-qorxu

"Əgər özünü yığışdırmasa, axırı pis olacaq bu müəllimin. Özünü çox yekəxana kimi aparır" (Spring 2009, səh.100). "Bəzi müəllimlər etik qaydalara riayət etsin. Unutmayın ki, hər bir tələbə affekt vəziyyətinə düşüb istənilən ağıla gəlməyən hərəkətlər edə bilər" (Spring 2009, səh.137). "Birinci və axırıncı dəfə olsun ki, bu cür dərs salırsınız. Sizin heç etdiyinizdən xəbəriniz var?" (Fall 2008, səh.97). "Belə müəllimdən ikisi də olsa, "Xəzər" dən qaçacam!!!" (Fall 2008, səh.131). "Sənə nə deyim, ay "Xəzər" adam universitetinə müəllim gətirəndə bilər ki, kimi gətirir. Bizi niyə zülmə salırsınız? Hər yerdə pisləyəcəm, qoy bura heç kim qəbul olmasın. Bu fənnin müəllimləri mənim ömrümün 5 ilini aldılar" (Fall 2008, səh.97).

Əslində, hədə-qorxu da kobudluğun bir forması olduğu üçün bu başlığa aid ayrıca şərh verməyə ehtiyac duymadıq.

Tələbələr və Azərbaycan zərbi-məsəlləri

"Özündən çox razıdır. Elə bil alçaq dağları bu yaradıb" (Spring 2009, səh. 29). "... Dağ dağa rast gəlməsə də, insan insana rast gələr. Onda bizə etdiyi "hörməti" biz də ona geri qaytararıq" (Fall 2008,

səh.151).

Məhz insanlar haqqında qiymətləndirmə aparar-kən, insani keyfiyyətləri müzakirə edərkən, zərbi-məsəllərdən, atalar sözlərindən, hikmətli sözlərdən tez-tez istifadə etmək üçün geniş meydan açılsa da, təəssüf ki, tələbələrimiz bu imkandan geniş istifadə etmirlər. Son 2 ildəki sorğularda cəmi yuxarıdakı 2 belə fikrə rast gəldik. Bu da tələbələrin müqayisə bacarığının zəifliyindən və şifahi xalq ədəbiyyatına kifayət qədər maraq göstərməmələrindən, az oxumalarından irəli gəlir.

Şairanəlik

Bununla belə, zərbi-məsəllərə çox həvəs göstərməsələr də, tələbələrimizdə şairanəlik xeyli hiss olunur:

"Həyatda ən gözəl şeydir ədalət
Məncə Firəngiz xanımdan yoxdur şikayət"
(Spring 2009, səh.47).

"Eşqdir mehrabı uca göylərin
Müəllimsiz ay tələbə, nədir dəyərin?"
(Fall 2008, səh.62).

"Gözəl üzlü Rəvanə
Getmə sən başqa yanə"
(Fall 2008, səh.118).

"Müəllimimiz Elnur
Saçır "Xəzər" ə nur"
(Spring 2008, səh.31).

Onu deyim ki, tələbələrimiz arasında xeyli sayda yaxşı, lirik şeirlər yazanlar var. Mən şəxsən o şeirlərdən bəzilərini oxumuşam. Çox yaxşı olardı ki, bu tələbələr öz şeirlərini dövri olraraq "Xəzər-xəbər"də dərc etdirsinlər ki, başqa tələbələr də "şair yoldaşları"nı tanısınlar.

Diqqət

"Dərs-zad keçmir, bütün günü "agentdə" qızlarla danışır (Spring 2009, səh.49). "Çox nazlı müəllimədir. Həmişə bizə göz süzür" (Fall 2008, səh.100). "...Təvazökar olmaq lazımdır. Deyir savadlı adamların xətti pis olur. Özü də qəsdən pis yazır ki, biz deyək ki, bu savadlıdır" (Fall 2008, səh.134).

Ümid edirik ki, bundan sonra tələbələrimizin "normadan artıq diqqətli" olduqlarını nəzərə alaraq, bu fikirlərin özlərinə aid olduğunu görən müəllimlərimiz də xeyli diqqətli olacaqlar.

Xeyir-dua

"Allah sizi qorusun, Elza müəllimə, amin!" (Spring 2009, səh.39). "Sağ olsun, allah ondan razı olsun" (Spring 2009, səh.110). "Allah sizi bizim başımızın üstündən əskik eləməsin" (Fall 2008, səh.11). "Allah onu bizə çox görməsin" (Spring 2008, səh.55).

Bu səpkili fikirlərə sorğularda xeyli rast gəlirik. Verilən əməyin qarşılığı müxtəlif yollarla ifadə edilir. Bu yollardan biri də məhz xeyir-duadır ki, tələbələrimiz bundan sevə-sevə istifadə edirlər.

Etiraf

Amma nə olsa da, bəzən insafı itirsələr də, tələbəyə yaraşmayan sözlər yazsalar da, hərdən həqiqəti etiraf etməyi də bacarırlar tələbələrimiz. Kənan Allahverdiyev haqqında deyilən bir fikrir: "Doğrusu, mən həmişə Kənan müəllim haqqında pis rəy yazmışam. Amma səhvim olub, çünki oxumamışam. Buna görə kimisə günahlandırmışam" (Fall 2008, səh.75).

Nə qədər cəsarətli bir etiraf! Əgər bir tələbə ən azı bunu etiraf etməyə özündə güc tapıbsa, bu özü artıq həmin naməlum tələbənin həqiqətsevərliyindən xəbər verir. Belə tələbələrimiz isə, inanın ki, az deyil. Doğrusu, bir dənə belə fikri oxuyanda, əvvəlki arzuedilməz məqamları unutmaq istəyirsən, tələbə adına hörmətin artır, onlarla yaxşı münasibətdə olmaq, onlara həmişə inanmaq istəyirsən.

İsaxan İSAXANLI

TƏDQİQAT

"KİTABİ-DƏDƏ QORQUD"DA QANTURALI HƏQİQƏTİ



BƏHLUL ABDULLA

filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi

V.V.Bartold «KDQ»lə bağlı 1893-cü ildə yazdığı bir araşdırmasında belə qənaətə gəlib ki, «Poemanın (*V.V.Bartold abidənin boylarını bütövlükdə poema adlandırıb* – **B.A.**) bir tam, vahid olmasına şübhə etmək olmaz: qəhrəmanların adları, epitetlər, səciyyəvi hadisələr daim təkrar olunur, bir hadisənin başqa yerdə də təkrarına işarə edilir, üslub hər yerdə eynidir. Yəqin ki, bütün hekayələr eyni epoxaya aiddir və bunlar bir rapsod (dastançı) məktəbi, lap ola bilsin ki, bir şəxs tərəfindən yaradılmışdır» (3, 120).

Təəssüflər olsun ki, bu böyük alim sonrakı araşdırmasında «KDQ»dəki boyların "bir tam, vahid olması", "hekayələr eyni epoxaya aiddir" fikrindən imtina etmiş və boyları məzmununa görə belə təsnif etmişdir: «KDQ» dəki boyların doqquzu Oğuzların kafirlərlə müharibələrinə həsr olunmuşdur. İkisi mifoloji səciyyə daşıyır. Biri, yəni sonuncu boy isə Oğuzların özləri arasındakı müharibədən danışır. Beşinci və altıncı boylar ona görə digərlərindən fərqlənirlər ki, bunlarda nə bütün Oğuzların başçısı «xanlar xanı» Bayındır xan, nə baş qəhrəman Salur Qazan, nə də o biri hekayələrdə iştirak edən şəxslər vardır. Beşinci boy və onun qəhrəmanı Dəli Domrul barədə müsəlman və ümumiyyətlə Ön Asiya ədəbiyyatında heç bir paralel tapmaq mümkün deyil. Altıncı boy – Qanturalının Trabuzandan qız alması isə «qərb romanlarında və şərq nağıllarında» özünə paralellər tapır... Qalan on boy isə bir-biri ilə sıx bağlıdır və eyni silsiləyə daxil olmaqla bilavasitə Bayındır xanla əlaqədardır (2,118-119).

Məsələ belədir ki, xüsusən «Qanturalı» boyu barədə dediklərində daha çox J.Ph.Falmerayerə arxalanan V.V.Bartoldun fikirləri bu boydan söz açan bəzi sonrakı araşdırıcılar üçün də fakt meyarına çevrilmişdir. Belə ki, Falmerayer «Geschichte des Kaisertums van Trepezunt» (Munchen,1927) əsərində geniyalı C.A.Marinin 1786-cı ildə nəşr olunmuş «Kalondro Fedele» romanına istinadən bildirib ki, «Yalnız Konstantinopoldan yox, yaxın türkmən əmirlərinin, yaxud qafqazlıların iqamətgahlarından, eləcə də Serbiya, Mitilen, uzaq Mesopotamiya və Persiyadan şahzadələr qız almaq üçün böyük Komen sarayına gəlirlər» (2,192).

Komin haqqında bizə bəlli olan budur ki, Yaxın Şərqin mühüm ticarət yolu sayılan bu şəhər 1204-1461-ci illərdə öz siyasi müstəqilliyi ilə tanınan Trabuzan imperiyasının paytaxtı imiş (2,192).

«KDQ»dəki boyların ayrı-ayrı zamanlarda, ayrı-ayrı nəğməkarlar tərəfindən qoşulub-düzüldüyünü elan edən V.M.Jirmunskinin fikrinə görə isə boyların bəziləri, konkret olaraq «Qanturalı», həmçinin «Dəli Domrul» ümumən «Qorqud» və «Salur Qazan» silsiləsinə daxil olmamışlar. Bu boylar qlobal imkanlarına görə «KDQ»dəki boylar mühitinə daxil ola bilmir, onlardan təcrid olunmuş statusda dururlar. O, «Qanturalı» ilə «Dəli Domrul»un abidədə ardıcıl (V-VI) yer almasını da təbii sayır və onların yaranma tarixini V.V.Bartold kimi, konkret olaraq, Oğuzların yeni vətəni saydığı Qafqaz və Kiçik Asiyaya, o sıradan Trabuzana köçmələrindən (XIV-XV yüzilliklər) sonrakı dövrə aid edir (2, 191-192).

«KDQ»-dəki «Qanturalı», həmçinin «Dəli Domrul» boylarından da söz açan X.Koroğlu qədər gah nala, gah mıxa vuran bir kimsə yoxdur. O, «Dəli Domrul»dan söz açarkən bu boyun "oğuzların müsəlmanlığı təzə qəbul etdiyi vaxtlarda yaradılıbdır» deyir. (8,124). «Qanturalı» barədə isə onun fikri belədir: «Mövzu və etnik baxımdan bu boy əksər Oğuz abidələrində qeydə alınan qədim Oğuz süjetləri ilə bağlıdır» (8, 131).

Elə buradaca o, dediklərini təkzib etməkdən çəkinmir. Əvvəlcə o, bu boyların nə tipinə, nə də mövzusuna görə "KDQ"nin ümumi kompozisiyasına uyuşmadığını, digər oğuznamələr arasında yad göründüyünü söyləyir. Onun fikrinə görə, bu boyları "...oğuzlarla nə etnik, nə tarixi elementlər, nə də qəhrəmanların tərkibi bağlayır" və bunların "ilk mənşəyini oğuzların yeni vətənində – Kiçik Asiyada axtarmaq lazım gəldiyini hesab edən akademik V.M.Jirmunski haqlı idi. P.A.Falyev də bu fikirdə idi» (8, 126).

İndi görün o, «Qanturalı» barədə, bayaqkı fikrinin əksinə olaraq nə yazıb: «Altıncı oğuznamə kompozisiya baxımından iki hissəyə bölünür. Birinci, elçilik, ailə qurmağın şərtləri və Trapezunda keçirilən toydur. Bu hissə, oğuz qədimliyi elementlərinin olmasına baxmayaraq, şübhəsiz Kiçik Asiya mənşəlidir. Boyun ikinci hissəsi sonradan əlavə olunmadır» (8, 131).



İndi baxaq X.Koroğlunun dediyi «oğuzların müsəlmanlığı təzə qəbul etdiyi vaxtların» ucu haraya gedib çıxır. Bilindiyi üzrə, türklərin islam dinini kütləvi qəbulu ilk islam türk dövləti olaraq tanınan Qaraxanilərin (840-1212) adıyla bağlıdır. Amma türklərdə ayrı-ayrı kimsələrin, qəbilə, tayfaların islam dinini qəbul etmələri tarixi çox-çox qədimdir. Bir qaynaqda deyilir ki, Qayı tayfasından olan Dədə Qorqud İnal Yabqu xanın vəziri idi. Məhəmməd peyğəmbərin dayıları – Abbas oğulları Bağdadda beş yüz il padşahlıq etmişlər və Dədə Qorqud da bu zamanlarda yaşamışdır. Farsca Oğuz dastanında da bildirilir ki, İnal Yabqu xan taxta çıxdıqdan sonra Dədə Qorqudu Məhəmməd peyğəmbərin yanına elçiliyə göndərmiş, o da orada islam dinini qəbul etmişdir (10,38).

Hələ onu demirik ki, Məhəmməd peyğəmbərin islam dinini qəbul etmiş ayrıca türk ordusu varmış. Həzrəti Şərifin dediklərini yazıya gətiririk: «Ulu Tanrı, mənim bir ordum vardır. Ona «Türk» adını verdim. Onları Şərqdə yerləşdirdim. Bir qövmə qızarsam o qövm üzərinə salar, müsəllat edərəm» (5, c.I, 35). Yenə də Peyğəmbərimiz deyib: «Türk dilini öyrənin, zira onların uzun sürəcək hakimiyyətləri vardır» (10,45).

Xalqda belə bir inam var ki, dünyasını dəyişmiş kimsənin adı yeddi kərə söylənilərsə, ruhu həmin yerə gələr. Biz də X.Koroğlu müəllimin, eləcə də onun əsaslandığı V.M.Jirmunskinin və digərlərinin ruhlarına üz tutub deyirik: - Bu qədər həngamədən sonra «Qanturalı», yaxud «Dəli Domrul»un ilk mənşəyini Oğuzların sizin hesab etdiyiniz yeni vətəni Kiçik Asiyada, həm də nə qədər təəccüblü olsa da, XIV-XV yüzilliklərdə axtarmaq hansı ölçüdə doğrudur? Heç olmazsa, bütün məqamlarda arxalandığınız, istinad etdiyiniz V.V.Bartoldun dediklərini unutmayın. Axı o, açıq-aydın olaraq bildirib ki, Dədə Qorqud adıyla bağlı epik silsiləyə daxil olan boylar Qafqaz mühitindən kənarda yarana bilməzdi (2,126).

Bundan savayı, çox mühüm mətləblərin açıqlanmasını yasaqlayan elə imperiya rejimi zamanında Oğuzların Qafqazdan, daha dəqiqi Azərbaycandan dünyaya yayılışının yayvari – dartınma, yəni getmə-qayıtma prinsipinə əsaslandığı sübut olunub. Yaxud, tarixi faktlarla sübut olunmuş «Orta və Mərkəzi Asiyada eramızın birinci minilliyinin ortalarında böyük xaqanlıq yaratmış və nəhəng abidələr qoyub getmiş türklər daha qədim Azərbaycan türklərinin övladlarıdır» (6,26) həqiqətini danan varsa, çıxsın ortaya.

Mənşəcə səlcuq oğuz türkü olan və Misirdə yaşamış Əbu Bəkir ibn Abdullah bəy Aybək Əd-Dəvadari 1309-cu ildə ərəb dilində yazdığı "Dürrərüt-tican və təvarix qürər əz-zaman" ("Şöhrətlilərin tarixindən incilər") adlı salnaməsində yazır ki, "Oğuz türklərinin əldən-ələ gəzdirdikləri "Oğuznamə" adında bir kitabları vardır. Orada oğuzların ilk zamanları, ortaya çıxmalarından etibarən gəlib keçən hökmdarlarının ilk və böyüyü Oğuzdan bəhs edilir" (4, L-LI).

Burada «KDQ»dəki Təpəgöz, Uruz, Basat adları da xatırlanır və bu fikirlər bizə haqq verir deyək ki, dünyaya Azərbaycandan yayılan türklər-oğuzlar elə burada yaratdıqları, kitab halına saldıqları on iki boylu «KDQ»i də özləri ilə getdikləri yerlərə aparmışlar. Dəvadarinin xəbər verdiyi "əldən-ələ gəzdirilən "Oğuznamə"də elə bu imiş. Oğuzların varlığı, tanınması isə yüzilliklərlə yox, minilliklərlə hesablanır. "Oğuz xan bizim peyğəmbərdən (*Məhəmməddən* – **B.A.**) 4000 il öncə yaşamışdır" (9, 258-259) sözləri də elə havadan deyilməyib ki...

V.V.Bartoldun «Dəli Domrul»un paralelinin müsəlman və ümumiyyətlə Ön Asiya ədəbiyyatında olmadığını, «Qanturalı»nın isə qərb roman və şərq nağıllarında olması fikrini arxada xatırlatmışdıq. Düşünürük ki, bu məsələdə misal gətirənləri ələk-vələk eləməyə heç bir ehtiyac yoxdur. Bunun üçün abidənin özünə müraciət etmək bəs eləyir. Bir vaxt biz Dəli Domrulla bağlı belə bir tutuşdurma apardığımızdan (1,13-18) indi yalnız Qanturalıya müraciət edirik.

«Qanturalı» boyunda	**«Bamsı Beyrək» boyunda**
Qanturalı aydır: - Baba, mən yerimdən durmadan ol durmuş ola! Mən qaraquc atıma binmədən ol binmiş ola! Mən qanlu kafir elinə varmadan ol varmış, mana baş gətirmiş ola! Qanlu qoca aydır: - Oğul, sən qız istəməzmişsən, bir cilasunbahadır istərmişsən (7,80).	Beyrək aydır: - Baba, mana bir qız alı ver kim, mən yerimdən durmadan ol durgəc gərək! Mən qaraquc atıma binmədən ol binmax gərək! Mən qırıma varmadın ol mana baş gətürmək gərək... Babası Baybörə xan aydır: - Oğul, sən qız diləməzsən, kəndünə bir hampa istərmişsən (7, 156).
«Qanturalı» boyunda	**«Dirsə xan oğlu Buğac» boyunda**
Qanturalı «Buğanın önundən savuldu, buğa buynuzu üzərinə dikəldi. Quyruğundan üç kərə götürüb yerə saldı. Sünükləri xurd oldu. Basdı, boğazladı. Pıçaq çıqarıb dərisini yüzdü» (7,82).	Oğlan (*Buğac* – **B.A.**) buğanın «yolundan savuldu. Buğa ayaq üstünə durmadı, düşdi; dəpəsinin üstinə yıqıldı. Oğlan bıçağına əl urdı, buğanın başını kəsdi» (7,40).

«Qanturalı» boyunda	**«Uşun Qoca oğlu Səgrək boyu»nda**
Qanturalıyla «...qılıcın çıqardı, yeri çaldıkərtdi. Ayıtdı kim, yer kibi kərtiləyin, topraq kibi savrılayın, qılıcıma doğranayın, oxuma sancılayın, oğlum doğmasın, doğarsa, on yaşına varmasın, bəg babamın, qadın anamın yüzün görmədən bu gərdəkə girərsəm! - dedi» (7, 83).	Səgrək «... qılıcın çıqardı. Qızla kəndü arasına bıraqdı... Mərə qavat qızı, mən qılıcıma doğranayım, oxuma sancılayım. Oğlum doğmasun, doğarsa, on yaşına varmasun, ağamın yüzin görməyincə, ölmiş isə, qanın almayınca bu gərdəgə girərsəm! – dedi» (7, 100).
«Qanturalı» boyunda	**«Qazıq Qoca oğlu Yegnək boyu»nda**
Qanturalı ilə Selcan «Gizli yaqa tutuban iyləşdilər (7,86).	«Babasi ilə Yegnək gizlü yaqa tutuban iyləşdilər» (7,88).

Belə-belə tutuşdurmaların sayını istənilən qədər artırmağın heç bir çətinliyi yoxdur və biz bu fikirdəyik ki, adlarını və fikirlərini xatırladıqlarımızın dediklərini əsas alıb "Qanturalı" boyunu qəhrəmanlarının tərkibinə, etnik, tarixi tipinə, zamanına görə "KDQ"dəki digər boylardan kənarda saymaq, Qafqazda, yəni Azərbaycanda yox Kiçik Asiyada, həm də XIV-XV yüzilliklərdə yaranmasını iddia etmək düzgün deyil.

ƏDƏBİYYAT

1. Abdulla B. Dəli Domrul «Kitabi-Dədə Qorqud»da və Qorqudşünaslıqda. – B.: Təhsil, 2002.
2. Бартольд В.В. Турецкий эпос и Кавказ//Книга моего Деда Коркута. – Б.:УНЕ, 1999.
3. Бартольд В.В. Сочинение. – М.: 1960, т.IV.
4. Gökyay O.Ş. Dedem Korkudun kitabı. – İstanbul: 1973.
5. Kaşqari M. Divani lüğət-it-türk. – Ankara: 1941, I c.
6. Kazımov Q. Homerin poemaları və «Kitabi-Dədə Qorqud». – B.: 2006.
7. Kitabi-Dədə Qorqud Ensiklopediyası, B.: 2000.
8. Короглы Х.Г. Огузский героический эпос. – М.: 1976.
9. Ögel Bş Türk mifolojisi. Ankara: 1989
10. Yazıçı H. Ilk türk-islam dövlətləri. – Ankara: 1992.

GROWING UP BIN LADEN: OSAMA'S SON SPEAKS

By Andrew Lee Butters



For Omar bin Laden, the fourth eldest of Osama bin Laden's 20 known children, the awful realization that his father was a terrorist mastermind who was plotting a global conspiracy that would destroy the lives of thousands of innocent people and even his own family came gradually. Of course, there were warning signs: Omar's childhood was marked by regular beatings and survivalist training; the growing army of ruffians and retainers who called his father "Prince"; and that Afghan mullah who had given his father an entire mountain in Tora Bora.

- Bin Laden's Son Loses Political Asylum Bid in Spain
- U.S. Rejected Iran Offer to Hand Over Saad bin Laden
- Eight Years After 9/11: Why Osama bin Laden is a Failure

But as he recounts in a book co-written with his mother, Omar - now 28 years old - found it hard to give up hope that a man who had killed so many people might one day turn his back on violence and become a normal father. The younger bin Laden fled Afghanistan only when it become clear that Osama was planning a massive attack on the U.S., but he still couldn't accept that his father was responsible for 9/11 until months later, when he heard the familiar voice on audiotape claiming credit for the attacks. "That was the moment to set aside the dream I had indulged, feverishly hoping the world was wrong and it was not my father who brought about that horrible day," he writes. "This knowledge drives me into the blackest hole." (See pictures of the life of Osama bin Laden.)

As the first book written about Osama bin Laden with help from anyone in the bin Laden family, Growing Up bin Laden: Osama's Wife and Son Take Us Inside Their Secret World (St. Martin's Press) is a valuable - if limited - glimpse into the personal life of the world's most wanted man. In recollections from Omar and his mother Najwa bin Laden (the first of Osama's five known wives), and with the assistance of American author Jean Sasson, the book paints a picture of Osama as a towering figure whose noble demeanor inspired fierce loyalty, but also an absolute authoritarian who wanted as many wives and children as possible in order to have foot soldiers for Islamic jihad. "My sons, your limbs must react to my thinking as though my brain was in your head," he told his children when they complained about their life in al-Qaeda camps.

However, Osama the father remains almost as elusive to his son (and the reader) as he is to the FBI - too consumed by jihad to care much for his children, too distant to seem like a full person. But Omar's memoir - which forms the core of the book - presents a strange and fascinating coming-of-age-story about a young boy who was groomed by his father to take over a worldwide terrorist enterprise but who instead chooses to get a job, start a family and play with animals. If the book suffers somewhat from the limitations of translation and overly formal prose, the thrill of being a fly on the wall of the bin Laden family drama quickly takes over. (See TIME's al-Qaeda covers.)

Omar's early childhood is both charmed and abusive. Though the family inhabited a mansion in the Saudi city of Jeddah and owned horse ranches in the desert, their father refused to let them have toys, take modern medicine or use almost any modern conveniences except for lightbulbs, automobiles and firearms. Though Osama would punish his boys for laughing or smiling and send them on forced marches in the desert without water, Omar and his brothers could at least console themselves with the honor of being sons of the man who helped defeat the Soviet Union in Afghanistan, a hero in both the Muslim world and the West. "When I was a young boy, I worshipped my father, whom I believed to be not only the most brilliant, but also the tallest man in the world," Omar writes. "I would have to go to Afghanistan to meet a man taller than my father. In truth, I would have to go to Afghanistan to truly come to know my father."

The nightmare began in earnest after the Saudi government banished Osama from the kingdom for railing against Riyadh's decision to allow American soldiers on Saudi soil to repel Saddam Hussein's invasion of Kuwait. From the new family home in Sudan, while Osama plotted to overthrow the Saudi monarchy and the American government, Omar noticed some dangerous new arrivals in their Khartoum neighborhood, including Ayman al-Zawahiri, the leader of an Egyptian Islamist movement who would become al-Qaeda's second-in-command. When members of another extremist group raped one of Omar's male friends, al-Zawahiri took justice into his own hands - by executing the victim.

"Time", Oct. 27, 2009

MÜNASİBƏT

TELEVİZİYAMIZ BİZƏ NƏ "ÖYRƏDİR"?!



Bu gün dünyanı böyük-böyük bəlalar bürüdüyü hər birimizin gözü önündədir. Dünyanın bir parçası olan Azərbaycandan da pis vərdişlərin – alkoqolizmin, narkomaniyanın, insan alverinin və s.-nin yan keçməməsi başa düşüləndir.

Müasir dövrdə kütləvi informasiya vasitələrinin, xüsusən, televiziyanın həyatımıza birbaşa təsiri çox böyükdür. Odur ki, televiziya sadəcə bir informasiya ötürücüsü deyil, həm də böyüməkdə olan nəslin tərbiyəçisi rolunda çıxış edir. Bu yaxınlarda ANS telekanalında "Qaydasız döyüş" (quruluşçu rejissor Vahid Mustafayev, ssenari müəllifi Kamran Kərimov; "Bakıfilm"in istehsalı) adlı çoxseriyalı filmin nümayişinə başlanıb. Bu film narkomaniyaya qurşanmış, tüfeyli həyat tərzi keçirən qadınlar, rüşvətxor məmurlar haqqında çəkilmişdir.

Ətrafımızda bu qədər problemlər var ikən, belə bir mövzunu ekrana gətirmək, diqqəti ona yönəltmək nə dərəcədə düzgündür?! Təəssüf ki, cəmiyyətdə belə filmlərə baxıb təqdim olunan həyat səhnələrinə ikrah hissi ilə yanaşan, o cür həyata nifrət bəsləyən, gənclərin sayı azdır. Nədənsə, insanların əksəriyyəti daha çox qeyri-məqbul yola üz tutmağa üstünlük verirlər. Bu mənada, əksər gənclərimiz bu tip filmlərə baxıb, təkcə bir fərdi deyil, bütöv cəmiyyəti bataqlığa, çirkaba, yanlış istiqamətə sürükləyən, insanlığı məhvə aparan yolları keçmək istəyəcəklər. Başqa sözlə, televiziya onlara pis örnək olur. Təbii olaraq, ortaya belə bir sual çıxır: məgər ətrafımızda həllini gözləyən daha vacib, hər birimizi narahat edən problemlər yoxdurmu? İndi ən böyük problemimiz Ermənistanın ölkəmizə qarşı apardığı müharibədir, başqa sözlə, Qarabağ problemidir. Bu müharibə nəticəsində yaranmış böyük qaçqın və məcburi köçkün ordusudur, itirilmiş torpaqlarımızdır. Məgər bu problem haqqında – vətənpərvərlik ruhunda, gənclərimizə torpaq, Vətən sevgisi aşılayan, tərbiyəvi mövzuda televiziya filmləri çəkilsəydi, daha gözəl olmazdımı?

İkincisi, adı çəkilən filmdə Azərbaycan xanımlarının tüfeyli həyat tərzi keçirən, şərəfsiz, həyasız və s. formada tamaşaçıya təqdim olunması qəbulolunmaz, yolverilməz bir yanlışdır. Çox kiçik istisnaları nəzərə almasaq, tarixən Azərbaycan qadını həya, ismət simvolu, qeyrət rəmzi olub və bu gün də bu simasını qoruyur. Bu qədim xalqın Nigar, Həcər, Sara Xatun və b. kimi igid, mərd qadınları olub. İstərdim ki, indinin özündə də belə qızlarımızın, qadınlarımızın sayı daha da çox olsun.

XXI əsrdə, müstəqil bir dövlətdə yaşamaq, Avropaya doğru yaxınlaşmaq heç də öz adət-ənənəmizi, mənəviyyatımızı unutmaq demək deyil. Biz öz adət-ənənəmizi unutsaq, demək, özümüzün kimliyimizi unutmuş oluruq. Kimliyini unudanlar isə xalq olaraq, millət olaraq məhvə məhkumdur. Hər bir Azərbaycan gəncini tariximizi, ənənələrimizi, milli kimliyimizi unutmamağa və unutdurmamağa, dövlətimizi, bayrağımızı daha da ucaltmağa çağırıram. O zaman heç birimizin narkomaniya, alkoqolizm kimi pis vərdişlərlə nəinki məşğul olmağa, heç o haqda düşünməyə də ehtiyacımız olmayacaq.

Nuranə EYVAZOVA,
Humanitar və sosial elmlər fakültəsinin birinci kurs tələbəsi

FOLLOW-UP MEETING OF THE "ASSEMBLY OF SCIENCE AND ART"





The President of Khazar University, professor Hamlet Isaxanli opened the 32nd meeting of the "Assembly of Science and Art" held at Khazar University on November 5th. V.K.Afabasyeva delivered a lecture on the topic "Ancient civilizations and the present day". Nargiz Akhundova (Faculty of Oriental Studies), Solmaz Rustamova-Tohidi (Institute of Oriental Studies, ANAS), Firangiz Nasirova (Khazar University), Islam Sadig (Azerneshr), Allahverdi Alimirzayev (Institute of Oriental Studies, ANAS), Eldar Ismayilov (Faculty of History, Baku State University), Solmaz Gashgay (Institute of History, ANAS) attended the meeting and made speeches on the issue.

HOW AND IN WHICH UNIVERSITIES CAN YOU STUDY ABROAD?

On November 6th Delegates from the universities in Great Britain initiated and conducted a seminar organized by Caspian Education Centre at Khazar University and dedicated to the question of "How and in which universities can you study abroad?". Director of the Foreign Education Department of Caspian Education Centre, Emin Amrullayev gave wide information on the issue. The delegates from the Universities in Great Britain, such as Glasgow and East Anglia; Caroline Boddie (Associate of the Department of International Relations of Glasgow University) and Nilu Rashidova (Associate of the Department of International Relations of the University of East Anglia) gave a thorough feedback on the higher educational institutions they represented. They also answered the questions of the perspective students wishing to study abroad.







SEMINAR IN THE FRAMEWORK PROGRAM BETWEEN KHAZAR BI NORWEGIAN SCHOOL OF MA

On 28th October in the framework of program cooperation between Khazar University and BI Norwegian School of Management a seminar was held at Khazar University. Professor Hamlet Isaxanli, the President of Khazar University, Vice-President of Khazar University and Dean of the School of Economics and Management, professor Mahammad Nuriyev, Senior Adviser on International Relations of BI Norwegian School of Management Feite van Dijk, Chair of Department of Computer Science and graduate of BI Norwegian School of Management Dr. Leyla Muradkl Azerbaijan Republic, Jon Ramberg Management, Øystein Noreng, a Management and Assistant to th International Relations and Project Studies Centre, Dr.Ingilab Ahmado the significance and perspectives institutions.

Dean of the School of Econom mad Nuriyev, and Senior Advis Norwegian School of Management operation program between Khazar Management.

Graduates of BI Norwegian spoke about the master program





F COOPERATION IVERSITY AND AGEMENT



, the Ambassador of Norway to
rofessor of BI Norwegian School of
duate of BI Norwegian School of
resident of Khazar University on
gul Isayeva, Director of the Energy
tended the meeting and spoke about
ooperation between two education

nd Management, professor Maham-
on International Relations of BI
e van Dijk spoke about a 5 years co-
versity and BI Norwegian School of

ool of Management Aygul Isayeva
Dr. Leyla Muradkhanli about the executive master in energy management program of BI Norwegian School of Management.

On 28th and 29th October Professor of BI Norwegian School of Management Øystein Noreng delivered lectures for Khazar University's students on the topics "The Financial Crisis, the Real Economy and the Oil Market" and "Norway's Petroleum Fund".





FOLLOW-UP MEETING OF THE "ASSEMBLY OF SCIENCE AND ART"

The traditional "Assembly of Science and Art" was held at Khazar University on November 3rd. President of Khazar University, professor Hamlet Isaxanli opened the ceremony. He gave wide information about professor Veronika Afanasyeva - St. Petersburg Hermitage Museum scientific researcher, shumerologist, who was hosted as a guest lecturer at the 31st "Assembly of Science and Art". Professor V. Afanasyeva delivered a broad and interesting lecture on "Shumer is the most ancient culture of civilization". The associate of Azerneshr, Islam Sadig, professor of the Academy of Public Administration affiliated to the President's office of the Azerbaijan Republic, Fuad Mammadov, doctor of philology Firudun Jalilov, Director of History and Archeology Department of Khazar University, Roza Arazova, the associates of the Institute of Archeology and Ethnography of Azerbaijan National Academy of Sciences (ANAS), Ilyas Babayev and Bahlul Ibrahimli, professor of Baku State University Suleyman Aliyarli and the associate of the Institute of History of ANAS Solmaz Gashgay participated in the discussions and made speeches.









MƏDƏNİYYƏT

MİLLİ KİTAB MÜKAFATI TƏSİS OLUNDU

Noyabrın 3-də Milli Kitab Mükafatının təqdimat mərasimi keçirilib. Bakıdakı Milli Kitabxanada düzənlənən təqdimat mərasiminə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, yazarlar Çingiz Abdullayev, Vaqif Səmədoğlu, Afaq Məsud, Rəşad Məcid, deputat Rəbiyyət Aslanova, rəsmi şəxslər, ziyalılar və jurnalistlər qatılıb.Milli Kitab Mükafatının təsisçisi, "Əli və Nino" Nəşriyyat Evinin rəhbəri Nigar Köçərli bildirib ki, layihənin məqsədi Azərbaycan ədəbiyyatına ictimai diqqət cəlb etmək, müasir ədəbiyyatın sosial önəmini artırmaq və yeni əsərlərin dərcidir.

Mükafatın münsiflər heyətində Yazıçılar Birliyinin katibi Çingiz Abdullayev, Kinematoqrafçılar İttifaqının sədri Rüstəm İbrahimbəyov, Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı, kinorejissor Ramiz Fətəliyev, şair Vaqif Səmədoğlu, deputat Rəbiyyət Aslanova, Yazıçılar Birliyinin katibi Rəşad Məcid, "Xəzər" Universitetinin rektoru Hamlet İsaxanlı, teleaparıcı Nərgiz Cəlilova, prodüser Balakişi Qasımov və "Muğam" radiosunun rəhbəri Elnur Baimov təmsil olunur.

Milli Kitab Mükafatı layihəsi bir neçə mərhələdə həyata keçiriləcək. Müsabiqəyə hekayələr, povestlər, romanlar və digər nəsr əsərləri qəbul olunacaq.

Namizəd əsərlər minimum 40 min çap işarəsi həcmində olmalıdır. Milli Kitab Mükafatının təqdimat günündən 10 il əvvəlki müddətdə yazılmış əsərləri münsiflər heyəti nəzərdən keçirəcək. Namizəd əsərlərin müəlliflərinə yaş, cins, yaşayış yeri və əsərin nəşr olunma yeri üzrə heç bir məhdudiyyət tətbiq olunmayacaq. Əsərləri yalnız müəlliflər təqdim etməlidir. Bura həm dərc olunmuş, həm də dərc olunmamış əsərlər daxildir.

Namizəd əsərlər 31 dekabr 2009-cu ilə qədər qəbul olunur. 2010-cu il yanvarın 26-da 20 əsər seçiləcək münsiflər heyətinin dəyərləndirməsinə veriləcək. Fevralın 10-da 10 əsərin daxil olduğu siyahı Milli Kitab Mükafatının rəsmi internet səhifəsində yerləşdiriləcək və arzu edənlər üçün səsvermə imkanı yaradılacaq. May ayının 1-də isə 3 qalibin adı elan olunacaq.

Birinci yerin qalibinə 3000, ikinci yerin qalibinə 2000, üçüncü yerin qalibinə isə 1000 manat həcmində mükafat veriləcək. Ən yaxşı 10 əsər dərc olunaraq dövlət kitabxanalarına və təhsil ocaqlarına paylanacaq.

"Qarant Sığorta" isə xüsusi mükafat elan edib. Milli Kitab Mükafatı layihəsi dövründə sığorta mövzusunda ən maraqlı kiçik hekayə qalibinə 1000 manat mükafat və 100 000 manat dəyərində mənzil sığortası hədiyyə olunacaq.

Gənclər və İdman Nazirliyi gənclər arasında ədəbiyyata marağı artırmaq və gənc yazarları dəstəkləmək məqsədilə 1000 manat dəyərində öz mükafatını təsis edib.

Layihə barədə bütün məlumatlar **www.mkm.az** internet səhifəsində öz əksini tapıb.

«Media forum»

ABŞ-DA AZƏRBAYCAN MUĞAMINA HƏSR OLUNMUŞ FİLMİN NÜMAYİŞİ

ABŞ-da keçirilən "Big Easy Film Festivals" Beynəlxalq film festivalında noyabrın 15-də Azərbaycan milli musiqisinin dörd ənənəvi ifaçısı haqqında çəkilmiş "Sirli muğam Montanaya gəlir" filmi nümayiş etdirilmişdir.

Filmin rejissoru, Montana Dövlət Universitetinin professoru və Cənubi və Şimali Qafqaz üzrə siyasi təhlilçi Tomas Qoltz kütləvi informasiya vasitələrinin nümayəndələrinə bildirmişdir ki, film «Qədim Şərq» musiqi qrupunun Billinqsdəki «Rocky Mountain» kollecində, Brozemandakı Montana Dövlət Universitetinin musiqi bölməsində, Livinqston kitabxanasında və Missouldakı Montana Universitetində çıxışlarını əks etdirir. Sonuncu konsertə tanınmış amerikalı muğam mütəxəssisi Cefri Verbok da qatılmışdır.

15 dəqiqəlik sənədli filmin süjeti qrupun qastrol boyunca yüzlərlə yerli sakini Azərbaycanın sirli, qeyri-ritmik, modal musiqisi olan muğamla tanış etməsi üzərində qurulmuşdur.

Tomas Qoltz vurğulamışdır ki, bu ecazkar musiqi ilə o, ilk dəfə 1991-ci ildə Azərbaycana səfəri zamanı tanış olmuşdur. Muğama da elə həmin vaxtdan vurulmuşdur. Muğam Amerika musiqisindən çox fərqlidir.

Filmin əsas operatoru Rendi Yakobs, əlavə kadrların operatoru Yen Klark, montaj edən Montana qrupundan olan Keti Maqruderdir. Filmin icraçı prodüseri Avropa Azərbaycan Cəmiyyətinin (TEAS) sədri Tale Heydərovdur.


Ekran əsərinin çəkilişinə Ermənistanın işğal etdiyi Dağlıq Qarabağdan məcburi köçkün düşən və hazırda Billinqsdə yaşayan Vahid Ələkbərov, Azərbaycan Respublikasının Los-Ancelesdəki baş konsulu Elin Süleymanov dəstək göstərmişlər.

AzərTAc

Личности

ДВЕ ПРИСТАНИ ВЕЛИКОГО АЛЬБЕРТА

Ах, эти старые письма, крошечные частицы прошлого. Они возвращаются к нам из глубин времени, чтобы приоткрыть легкую завесу воспоминаний. Мы часто спрашиваем себя: какими были наши знаменитые предшественники? Как они жили, любили, что переживали, когда расставались.



Чем их личные проблемы тогда, отличалась от наших, теперешних. И, когда читаешь эти пожелтевшие страницы, понимаешь, они были такие же, как и мы. Их волновали те же чувства, одолевали те же мирские тяготы!

«...Я потерял разум, умираю, пылаю от любви и желания. Подушка, на которой ты спишь, во стократ счастливее моего сердца. Ты приходишь ко мне ночью, но, к сожалению, только во сне...»

Это строчки из письма выдающегося физика XX века Альберта Эйнштейна своей возлюбленной – Милеве Марич. Переписка двух ярких личностей дает нам возможность лучше понять Великого ученого, жизнь которого никогда не ограничивалась одной лишь наукой.

Они познакомились в 1897 году в Цюрихе, в политехническом институте, где оба постигали азы знаний. Она – юная сербка, будущий математик, он – будущий создатель Теории относительности. Их роман развивался стремительно. Молодой красавец покорил славянское сердце замкнутой Милевы. Но судьба не всегда благоволит влюбленным. Они вынуждены расстаться, и письма спешат к своим адресатам…

«Из наших встреч родилось особое чувство, которое пробуждается каждый раз помимо моей воли. При малейшем воспоминании я мысленно возвращаюсь в свою комнату, где я вас ждала...»

Страсть переполняет их, они уже не могут обходиться друг без друга.

«Я с грустью вспоминаю, - пишет молодой Эйнштейн, - о днях нашей поэтической печали. Сидя часами около вас, моей очаровательной и прекрасной спутницы, я вдруг осознал нашу полную близость и невероятное родство наших душ и тел» и прощаясь: «…Дружески и более, ваш Альберт».

«Потому что ты мне так дорог и ты так далеко от меня, что я не могу тебя поцеловать. Я пишу тебе, чтобы спросить, нравлюсь ли я тебе так же, как ты нравишься мне? Ответь мне немедленно»

Эйнштейн возвращается в Цюрих в сентябре 1899 года, но перед этим сообщает Милеве: «Мы устроим игру, и будем вспоминать, что с нами было, сравнивая наши воспоминания. Мои воспоминания окрашены в цвета радости… Потом мы сразу же возьмемся за теорию Гельмгольца по электромагнетизму»


Она не только влюблена в него, но и разделяет его научные взгляды. А разве можно устоять перед женщиной, которая в письме между строк признаваясь в любви, попутно обсуждает теорию электромагнитного поля!

«Как счастлив и горд я буду, когда мы оба доведем работу над относительным движением до победного конца»

Милева становится помошником Эйнштейна в его исследованиях. С ней он обсуждает идеи своих новых научных работ, без нее чувствует одиночество.

«Как может вас не быть рядом со мной!» - восклицает в письме будущий ученый.

Он решается рассказать о своих отношениях матери. У нее – обморок. Какой ужас! Эта сербка старше ее обожаемого мальчика на четыре года! Возможно, эта резко негативная реакция его родителей на женить-



бу во многом осложнила их отношения. А также отсутствие работы, неустроенность и материальные трудности мешают Эйнштейну принять решение. Они скитаются по квартирам. Вскоре выясняется: Милева ждет ребенка. Извечный вопрос мужской половины человечества в этой ситуации: что делать?



В январе 1902 года Милева родила дочку Лизерл. Но проблемы не исчезают, и они принимают непростое решение – отдать девочку в богатую бездетную семью родственников Милевы. Теперь негодуют ее родители и требуют немедленно уйти от Альберта. Но она не делает этого, а наоборот умоляет возлюбленного как можно скорей узаконить их отношения.

В ответ получает письмо, датированное 20 января 1903 г.

«Если хочешь замужества, ты должна согласиться на мои условия, вот они:

Во-первых, ты будешь заботиться о моей одежде и постели.

Во-вторых, будешь приносить мне трижды в день еду в мой кабинет.

В-третьих, ты откажешься от всех личных контактов со мной, за исключением тех, которые необходимы для соблюдения приличий в обществе.

В-четвертых, всегда, когда я попрошу тебя об этом, ты будешь покидать мою спальню и кабинет.

В-пятых, без слов протеста, ты будешь выполнять для меня научные расчеты.

В-шестых, не будешь ожидать от меня никаких проявлений чувств.

Милева принимает условия, и вскоре они становятся мужем и женой.

В 1905 году в журнале «Annalen der Physik» была опубликована Теория относительности, и для Эйнштейна открывается новый этап в его научной деятельности. В 1911 году в Праге он получает звание профессора, в 1912 году в Цюрихе – высшее профессорское звание. А в 1913 году его избирают в Прусскую Академию наук в Берлине. Его взгляды получают признание и поддержку в европейской научной среде. Он разъезжает с лекциями по столичным университетам, слава его растет.

А Милева послушно занимается детьми. К этому времени их уже двое: Ганс-Альберт и Эдуард.

Некоторые биографы ученого утверждали, что математические расчеты в работах Эйнштейна делала Марич, и ей принадлежат отдельные положения теории относительности. А кто-то считал, что ее поддержка была скорей эмоциональной. Но, не окажись с ним в этот момент жизни такой преданной и любящей женщины как Милева, врядли великий физик изрек:

«Радость видеть и понимать есть самый прекрасный дар природы»

Когда в 1921 году Эйнштейн получил Нобелевскую премию, большая часть гонорара была отдана Милеве.

А пока молодой талантливый ученый быстрыми шагами поднимается на вершину своей славы.

Однажды, будучи в гостях у дяди в Берлине, Альберт влюбляется в свою кузину – Эльзу Левенталь. Она молода, красива, эмансипированна, мечтает об артистической карьере. У нее растут две маленькие дочки от первого брака. Для Милевы это удар. Она долго не соглашается на развод, но Альберт настаивает, и, лишь к 1919 году, их пути расходятся окончательно. Он переезжает в Берлин. В



отличие от первой жены, Эльза была далека от работ своего мужа, и всю жизнь пыталась оградить его от бытовых проблем. Этот брак давал ему свободу и оставлял наедине с самим собой.



«Я никогда беззаветно не принадлежал ни стране, ни государству, ни кругу друзей, ни моей семье. Внешние условия играли второстепенную роль в моих мыслях и чувствах. Восприятие мира рассудком, отбрасывая все субъективное, стало сознательно или бессознательно моей высшей целью. Еще юношей, не полетам развитым, я уже ясно осознал бесплодность надежд и чаяний, исполнения которых большинство людей добивается всю жизнь. Материальное благополучие и счастье никогда не казались мне единственной целью жизни. Я даже склонен сравнивать такие моральные цели с амбициями свиньи»

В 1933 году нацистская партия приходит к власти в Германии. Эйнштейн очень четко представлял политическую обстановку того времени и понимал, что предстоит пережить человечеству в будущем, поэтому открыто выступал против новых порядков.

В письме, написанном в этот год Милеве Марич, он очень верно оценивает ситуацию:

«Не могу понять, как это весь мир остается слепым к тому пеклу, которое для него готовит Гитлер и вся его банда фашистов»

Эйнштейн принимает решение покинуть Германию и переехать с семьей в США. Научный мир Америки с радостью воспринял эту новость. В 1940 году он становится профессором физики в новом Институте фундаментальных исследований в Пристоне (штат Нью-Джерси) и получает американское гражданство.


В это время Эйнштейн активно выступал против разработки и создания ядерного оружия, понимая, какой вред это может нанести человечеству. В последние годы жизни он занимался единой теорией поля и хотел с помощью одного единственного уравнения очертить взаимодействие трех основных сил: электромагнитной, гравитационной и ядерной.

Но 18 апреля 1955 года лопнула аорта и остановилось сердце автора теории относительности. Без лишнего ажиотажа, тихо, в присутствии самых близких, его тело предали кремации близ Трентона, захоронение праха было проведено тайно. Но есть версия, что по его желанию, вместе с ним погребли и пепел черновиков его последних научных разработок. Вероятно, он считал, что эти знания могут навредить человечеству. Что это были за работы, не знает никто. Ответ на это вопрос великий ученый унес с собой.

Эйнштейн был человеком больших страстей, из его автобиографических заметок видно, как сильно он старался подавить свои эмоции, и его попытки восторжествовать над ними, не принесли желаемого. Это понятно из слов, написанного им краткого некролога на смерть своего лучшего друга Мишеля Бессо.

«Как человеком я больше всего восхищаюсь им за то, что он прожил долгие годы не просто в мире и согласии, но в полной гармонии с женщиной. Он справился с тем, в чем меня дважды постигала позорная неудача»

Ирина ЛУКЬЯНОВА,
"Русская Америка, NY",№403



TƏLƏBƏLƏRİMİZİN YARADICILIĞI

ƏLİ KƏRİM POEZİYASI HAQQINDA BİR NEÇƏ SÖZ

Əli Kərim qısa, lakin mənalı bir şair ömrü yaşamışdır. Bu ömür coşqun dağ çayını xatırladır. O, bənzərsiz yaradıcılıq üslubuna malik olan nadir istedad sahiblərindən biri idi. Əli Kərim şeirlərində xarici parıltıya yox, fikrə, mənaya üstünlük verirdi. O, həmişə şeirə nəsə yeni bir fikir, yeni söz gətirməyə çalışırdı. Kiçik bir şeirində bunu açıq deyir:

Barışma kədərlə,
Hər şeyə biganə olarsan.
Barışma sevinclə,
Sərməst qalarsan.
Mübarizəylə barış.
Axtarış lazımdır,
Axtarış!
Fikirləş bir,
Şekspir var,
Şekspir!

Əli Kərim nədən yazırsa yazsın, oxucunu özünə cəlb edə bilir. Sanki şair oxucunu ovsunlayır. Əli Kərim şeirinin dili olduqca sadədir. Şair daha çox adi şeylərdən yazsa da, onu çox gözəl bir dillə təsvir edir və adama elə gəlir ki, olduqca dərin bir mövzuya toxunub. Onu da nəzərə almaq lazımdır ki, ən böyük kəşflər adilikdən başlayır. Elə Əli Kərim də əsl şeirin yaranmasını adi şeylərdə görürdü. "Nəğmələr yuvası" şeirinə fikir verək:

Gecə düşür...
Susur bütün nəğmələr
Susur bütün şəhər.
Oğlum Paşa,
Oğlum Azər
deyirlər:
Nəğmələr harda yatır,
Yuvaları hardadır?
Deyirəm ki:- Ay Paşa,
Deyirəm ki:-Ay Azər,
Sizin ürəyinizdə
Gecələyir nəğmələr.
Bir azdan oğlum Paşa
Bir azdan oğlum Azər
Sevindirərək məni
Yatırlar.
Ürəklərinin
Başına qoyub
təmiz
Balaca əllərini.

Sadə dil ilə qələmə alınmış bu şeirdə dərin fikirlər ifadə olundu-



ğuna görə onu dönə-dönə oxumaq istəyirsən.

Əli Kərimin seçdiyi mövzular olduqca orijinal və gözlənilməz idi. Şairin "Çiçəklər iclasda" şeirinə nəzər salaq:

Çiçəklər iclasa birinci gəldi,
Onların ətirdən sözləri vardı.
Onlar cıxışını hamıdan əvvəl
Başlayıb, hamıdan sonra
qurtardı.
Onların sözünü dinləməyərək,
Əlini döşünə döyənlər vardı.
Onlarsa zəriflik əzəmətiylə
İclası sonadək gözəl apardı.
Onların saf qəlbi, ruhu, qüdrəti
Mənim ürəyimdə qaldı əbədi.

Bu şeiri diqqətlə oxuyandan sonra ürəyində Azərbaycan poeziyasının korifeyi Füzulinin "İlahi, feyzdən möcüzədir söz" kəlməsini bir neçə dəfə təkrar edirsən. Şair bu şeirlə onu demək istəyir ki, qışqırmaqla, döşünə döyməklə yox, sadəliklə, səmimi olmaqla insanlarda özünə qarşı rəğbət oyada bilərsən. Əli Kərimin əksər şeirləri belə orjinaldır. Şair sözlə bir şeyin şəklini çəkəndə onun üzərində fotoqrafçı kimi yox, mahir bir rəssam kimi işləməlidir. Rəssam çəkdiyi hər bir şəkildə fikri müxtəlif rənglərlə neçə ifadə edirsə, şair də şeirdə fikri sözlərin vasitəsi ilə oxucuya elə çatdırmalıdır. Əli Kərim ustad rəssam kimi oxucularının gözlərinin qarşısında dayanır. Fikrimin təsdiqi üçün "Qarlı qış axşamında" şeirindən bir parçanı sizə təqdim edirəm:

Tiflisə axşam düşür
Ağır-ağır
Qar yağır.
Fənərli fayton keçir
Ordan-burdan arabir.
Səbuhi asta-asta
Işdən evinə gedir
Paqonlu çiynində qar...

Azərbaycan ədəbiyyatında ana mövzusunda çoxlu şeirlər yazılmışdır. Hamısı da bir-birindən gözəl, bir-birindən ecazkar. Onlardan biri də Əli Kərimin "Ana" şeiridir. Şair bu şeirdə ananın nə qədər böyük

olduğunu çox ustalıqla təsvir etmişdir. Şair ananın göydən də uca olduğunu, ananın yaranışdan oxşarı olmadığını iftixar hissi ilə qələmə almışdır. Əli Kərim ananın ağarmış saçlarını uca dağın başındakı ağ qara bənzədir. Çünki ana da dağ kimi vüqarlı, əzəmətlidir.

Ağarmış saçına əl vuranda mən
Əlim Şah dağının başına dəyir.

Şairin sevgi mövzusunda yazdığı "Iki sevgi" şeiri bu gün bütün gənclərin ən çox sevə-sevə öyrəndiyi şeirlərdən biridir. Şair bu şeirdə hələ heç kimin yaratmadığı bir bənzətmə yaratmışdır. Bu bənzətmə ilə şair sevgisinin nə qədər dərin olduğunu anlatmışdır:

Mənsə səni sevirəm
iynənin ucu boyda
İşığa həsrət qalan göz işıq
sevən kimi.
O isə səni sevir,
Bir şən mağarda, toyda,
İşıqlardan yaranmış yaraşıq
sevən kimi.

Əli Kərim şeirinin formasını, janrını müəyyən etmək çox çətindir. O, heç vaxt qafiyəyə, janra görə ürəyindən gələn sözləri, fikirləri çərçivəyə salmayıb. Şair tənqid burulğanına düşsə də, şeiri cəsarətlə, ürəyinin dediyi kimi yazmışdır. Şairin "Bakı küləyi" şeirindən üç bəndə nəzər salaq:

Bəzən də sakit əs, su kimi durul,
Gəlib dalğa-dalğa tökül
qoynuma.
Gah da mənə çatıb havada burul,
Burula-burula dolan boynuma.

Amma ürəyimdə bir sözüm də
var,
Sən ey soyuq xəzri, isti gilavar!
Gəlsə yuxu kimi bu həyat sənə,
Min bir mübarizə xatırlat mənə.

Gurla, var gücünlə gurla, ey
külək,
Saçımı da dağıt, sinəmdən də
bas!
Mən də cavab verim, mənə
qulaq as:
Gəl bir də toqquşub döş-döşə
gələk!

Şeirin birinci bəndində qafiyə sisteminə diqqətlə baxaq. Birinci misra ilə üçüncü misra, ikinci misra ilə dördüncü misra həmqafiyədir. Hər şey olduqca gözəldir. Bəs şeirin ikinci və üçüncü bəndində qafiyə sistemi birinci bəndin qafiyə sisteminə uyğun gəlirmi? Əsla yox! İkinci bənddə birinci misra ilə ikinci, üçüncü misra ilə isə dördüncü misra həmqafiyədir. Üçüncü bəndin qafiyə sistemi isə nə birinci, nə də ikinci bəndin qafiyə sisteminə uyğun gəlmir. Bu birinci misra ilə dördüncü misra, ikinci misra ilə isə üçüncü misra qafiyələnmişdir. Qafiyə sisteminin belə olması şeiri heç də zəiflətmir, əksinə, daha da gücləndirir. Çox güman ki, şair bu şeirin qafiyə sistemini birinci bənddə olduğu kimi saxlasaydı, zəif olardı.

Əli Kərim şeirlərini dərin müşahidə süzgəcindən keçirərək yazmışdır. Misralarında şairin ürəyi döyünür. Ona görə də, onun şeirləri oxucular tərəfindən böyük maraqla oxunur.

Ərşad MƏHƏRRƏMLİ,
Humanitar və sosial elmlər fakültəsinin üçüncü kurs tələbəsi

"JAXON ADABİYYATI" JURNALINDA XƏLİL RZA ULUTÜRK HAQQINDA MƏQALƏ



Daşkənddə özbək dilində nəşr olunan "Jaxon adabiyyati" jurnalında Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun elmi işçisi, filologiya elmləri namizədi Əlizadə Əsgərlinin Xəlil Rza Ulutürk haqqında məqaləsi çap edilmişdir.

Məqalədə deyilir ki, görkəmli Azərbaycan şairi Xəlil Rza Ulutürk özbək ədəbiyyatını çox sevirdi. O, 1969-cu ildən başlayaraq Özbəkistana tez-tez gələrdi və burada çoxlu dostları vardı. Şair həm özbək ədəbiyyatından tərcümələr edir, həm də Özbəkistan, bu ölkənin təbiəti, insanları haqqında şeirlər və məqalələr yazırdı.

Ədibin "Bakı-Daşkənd hava yolu", "Özbəklər", "Səmərqəndim", "Qardaşlar" və digər kitabları bu qəbildəndir. Bakıda çap olunan "Turan çələngi" böyük həcmli kitabının 500 səhifəsi özbək şairlərinin əsərlərindən ibarətdir. Burada Əlişir Nəvai, Babarəhim Məşrəb, Həmzə Həkimzadə Niyazi, Çolpan, Qafur Qulam, Aybək, Həmid Əlimcan, Zülfiyyə, Mirmöhsün, Həmid Qulam, Şükrulla, Maqsud Şeyxzadə, Erkin Vahid və digər şairlərin əsərləri toplanmışdır.

Məqalədə ədəbiyyatlarımızın qarşılıqlı təsiri geniş şərh edilir, özbək şairlərinin Azərbaycana həsr etdikləri əsərlər haqqında ətraflı söhbət açılır.

AzərTAc

WHY FRANCE IS PUSHING ITS STUDENTS TO MASTER ENGLISH

By Bruce Crumley



The faces look a little nervous and the words are spoken a bit timidly — all rather normal for a group of French students learning to speak English. But the hesitant responses aren't coming in a classroom where foreign-language instruction is another obligatory grind in a long day of courses. Instead, these 18-to-25-year-olds are paying up to $6,000 annually to master a language they all took for six years in high school before earning their baccalaureate degrees and entering the job market.

"A lot of things in France have changed under globalization in order to keep us competitive, but teaching people English here has remained old-fashioned and inefficient," says Julien Petitpas, one of the 10 young adults who gather for 12 hours a week to improve their English at the Berlitz language school near the Paris Opera. "In school it's all structure, grammar and getting it right on paper and in your head before you ever speak — and even then, you don't do much of that. It just doesn't work."

He's not the only person who thinks so. Earlier this month, French President Nicolas Sarkozy unveiled an "emergency plan" for teaching foreign languages in the nation's schools with the lofty objective that "all our high school students must become bilingual, and some should be trilingual." Why the panic? Because as Sarkozy noted, a nation that spends 5.8% of its annual GDP on education - the fifth-highest percentage in the world - simply must do better than its current rank of 69th among 109 countries on the standardized Test of English as a Foreign Langu-age (TOEFL). To that end, Sarkozy has proposed exposing students to more native-speaking English instructors, increasing contacts between French and foreign high schools and shifting the focus in schools from written fo-reign-language instruction to the more practical oral.

"A modern foreign language is meant to be spoken," Sarkozy said in his latest assault on the kinds of tradition-bound practices that he believes are holding the country back economically. "Pointing something that obvious out isn't futile in a country where Latin is an oral exam on the baccalaureate, while the leading modern language is evaluated in written form."

Compelling teachers in France's notoriously rigid education system to change their ways and encourage students to speak more in foreign-language classes will be one challenge to overcome. Another is confronting the contradiction that comes with promoting foreign-language study among students and continuing France's long-standing policies aimed at protecting and promoting the use of the French language at home. The Academie Française began its mission of purging the French language of impurities — often words taken from other languages — way back in 1635. The key objective of the country's 25-year-old *exception culturelle* is ensuring that French-language music, film and other cultural products are not dominated by English-language imports. And a law passed in 1994 requires that French translations accompany any foreign phrases in state documents, business contracts and even advertising.

These efforts to trumpet the virtues of the French language may inadvertently decrease the allure of foreign tongues to many in France — especially among students who are made to feel they mustn't attempt to utter a word of what's often called *la langue de Shakespeare* until they've mastered it on paper. "I think a lot of French people are hesitant to speak another language at what could be considered the expense of French," says Karin Hull, who has taught English at Berlitz for four years. "The legacy of cultural protectionism is one factor, and the way foreign languages are taught in school is another. Students pass language exams only to discover they can't really speak [the language]."

Shifting the focus of foreign-language study from written to oral instruction is only one way of making classes more practical. Berlitz also offers First Jobs, an increasingly popular course in which students are taught business and financial English vocabulary and are given help improving their résumés and job-interviewing skills — in English. "These are students who've wanted to improve their English as part of many things they'll need in their careers," says Alain Nothern, the polyglot director of Berlitz's Opera center. "The focus is English, but it's a wider tool kit for the business world."

Becoming an Anglophone isn't cheap — but that's not stopping students from signing up. Laetitia Marcellesi says she had to get a job to pay for the course, while her classmate, Justine Boussin, took out a loan to finance a study-abroad trip to London. Only time will tell if future French students will start getting this type of practical training for free at school or whether they'll have to keep paying for it once they graduate.

"Time", Oct. 31, 2009

TÜRK OĞLANLA AZƏRBAYCANLI QIZIN DÖRDBUCAQLI EŞQ HEKAYƏTİ

YAXUD DOĞAN AİLƏSİNİN AZƏRBAYCANLI GƏLİNİ TERROR GÜNÜ NƏLƏR ÇƏKİB?



Əslində, onların əhvalatı Türkiyə türküylə Azərbaycan türkünün yeganə evliliyi deyil. Ancaq ən maraqlı olanlarındandır Hüseynlə Pərvanənin eşq və evlilik hekayəsi. Axı, Ucarda (Azərbaycan) anadan olmuş bir qızdan ötrü Elbistanda (Türkiyə, Kahramanmaraş) doğulmuş oğlanın Berlindən (Almaniya) Tulaya (Rusiya Federasiyası) elçi göndərməsi necə maraqlı olmaya bilər? Beləliklə, türk oğlanla azərbaycanlı qızın 4 ölkəni əhatə edib "dördbucaqlı eşq" yaradan hekayəsi!

ONLARLA TANIŞ OLUN

Pərvanə Həsənova 1984-cü ildə Ucar rayonunda anadan olub. 2001-ci ildə orta məktəbi bitirəndən sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Fizika fakültəsinə daxil olub, 2005-ci ildə həmin ali məktəbi bitirib. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) institutlarının birində kompüter mühəndişi vəzifəsində çalışır.

Hüseyn Doğan 1984-cü ildə Türkiyənin Kahramanmaraş şəhərinin Elbistan rayonunda anadan olub. Hazırda Azərbaycan Dövlət Neft Akademiyasının (ADNA) sonuncu – dördüncü kurs tələbəsidir.

"MƏKTUB HADİSƏSİ"

Tanışlıqları da yaşadıqları kimi maraqlıdır. "Məktub hadisəsi" ilə başlayan tanışlıq 2005-ci ildə olub. Hüseyn Pərvanənin həmin vaxt İçərişəhərdə çalışdığı ofisin yuxarı mərtəbəsindəki tanışlarının yanına gəlib-gedirmiş. Pərvanənin iş yerinə poçt vasitəsilə dünyanın müxtəlif yerlərindən sənəd və məktublar gəlirmiş. Belə məktubların biri isə ofisdə heç kim olmayan vaxt gəlir (Pərvanəgil həmin vaxt məhkəmədə olub). Poçtalyon yuxarı mərtəbədə türklərin qaldığını öyrənərək, məktubu evdə yaşayanlardan birinə vermək istəyir. Əslində isə, məktubu orada yaşamayan şəxsə - Hüseynə verir. Hüseyn də məktubu ofis işçiləri gələndən sonra onlardan birinə – Pərvanəyə çatdırır: "Xanım, bu məktub sizə çatacaq..."

Pərvanəni görən Hüseyn bir könüldən min könülə ona aşiq olur. Onunla çətinliklə tanış olandan sonra isə ürəyini açır.

Pərvanənin də Hüseyndən xoşu gəlir. Ancaq deyir ki, "atamgil məni çətin ki, türk oğlana ərə versin". Elə belə də olur. Pərvanənin atası "yox-yox" deyib durur. 2007-ci ildə artıq Hüseynlə Pərvanə ciddi münasibətlər qurmaq barədə düşünürdü. Ancaq Pərvanənin atası qızını öz yanına – Rusiyaya apararaq "səni türk oğlana ərə verməyəcəyik" deyir. Rusiya demişkən, axı onun ata-anası Azərbaycanda yaşamırdı – Hüseynin valideynlərinin Türkiyədə yaşamadığı kimi. Onlarda hər şey oxşardı...

OXŞAR TALE

Hüseynin atası təxminən 20 il əvvəl Almaniyaya qazanc dalınca gedib, daha sonra ailəsini də aparıb. Pərvanənin də atası 23 il əvvəl Rusiyaya qazanc dalınca yollanıb, sonra ailəsini də aparıb. Hüseynin ata-anası, bacı-qardaşı, bir sözlə, ailəliklə Almaniya vətəndaşıdır (həm də Türkiyə vətəndaşıdır, onlar ikili vətəndaşlığa mənsubdur). Pərvanənin də ata və anası Rusiya vətəndaşıdır (yeganə bacısı ailə qurub, Bakıda yaşayır).

ELÇİLİK...

Hüseyn Rusiyada yaşamağa başlayan Pərvanəni uzun müddət görmür. Ancaq telefonla əlaqə saxlayırlar. Günlərin birində (2008-ci ilin əvvəllərində) Hüseynin atası

Pərvanənin atasına gözlənilmə-



dən zəng vurur. Berlindən Tulaya zəng vurulacağından Pərvanənin özünün də xəbəri yox imiş. Hüseynin atası özünü "Sizin qızınızı istəyən Hüseynin atasıyam" kimi təqdim edəndən sonra deyir ki, "Hüseyn bizim böyük oğlumuzdur. O, kimi istəyirsə, həmin qızı da alacağıq. Pərvanə bizim gəlinimiz olacaq. Sən versən də, verməsən də o qız bizimdir..." Pərvanənin atası isə yenə də "yox!" deyir. Ona "qızı yüzü istəyər, birinə verərlər", "qız ağacı, qoz ağacı" kimi atalar sözlərini çəkir. Axırda da deyir ki, "Axı biz qızımızı tanımadığımız, bilmədiyimiz bir insana necə verə bilərik?!"

Bu sözlər Hüseynin atası Hacı Doğanın ağlına batır. O, Pərvanənin atasıgili Berlinə qonaq çağırır: "Gəl mənim ailəmi də, özümü də, işimi də gör, əyani tanış olaq. Gör ki, güvənilən adamam, yoxsa yox". Lakin yenə "yox" cavabı eşidincə "onda özümüz Rusiyaya gəlirik" deyir. Hacı Doğan həyat yoldaşını da özü ilə götürüb Berlindən Tulaya – Pərvanənin atasıgilə gedir (söhbətin bu yerində Pərvanə barmağındakı üzüyü göstərib gülərək, "həmin vaxt bu üzüyü də gətirmişdilər" deyir). Pərvanənin atası isə deyir ki, "bu nə üzükdü, mənim hələ sizə qız vermək fikrim yoxdu. Siz bizə qonaq gəlmisiz, xoş gəlmisiz. Ancaq qızı vermirik..."

Tulada olduğu vaxt Hacı kişi Pərvanənin ata-anasını Berlinə qonaq çağırır. Razılaşma olunca, onlara viza da alaraq özləriylə gələcək qudalarını Berlinə aparır. Orada isə onları ailəsi və restoranları ilə tanış edir (Hüseynin atasının Berlində "İmren Qril" adlı iki restoranı var).

Pərvanənin ata-anası Berlin səfərindən, daha doğrusu, onlarla qohum olmaq istəyənlərdən çox razı qalırlar. Bu razılıq həm də elçilərə "hə" cavabının verilməsinə səbəb olur.

TOY

Qız toyu Tulada olur. Pərvanənin yaxın qohumları həmin şəhərdə yaşadığından onlara toyu Rusiyada etmək daha əlverişli sayılırdı. Daha sonra onlar təyyarəylə İstanbula uçur, İstanbuldan da Kahramanmaraşın Elbistan rayonuna gəlirlər. 2008-ci il avqustun 17-də oğlan toyu olur. Cütlük təxminən bir ay Elbistanda yaşayır. Sonra isə onlar Bakıya, qız tərəfi Tulaya, oğlan tərəfi Berlinə yollanır (dediklərinə görə, toyları əla keçib...)

Pərvanə qayınata və qayınanasından, ümumilikdə bütün yeni qohumlarından çox razıdır: "Mənə özlərinkindən yaxşı baxırlar..."

30 APREL SARSINTISI

Bu il aprelin 30-da Azərbaycan Dövlət Neft Akademiyasında baş verən hadisə zamanı Pərvanəylə Hüseyn də ağır sarsıntı keçirir. Hüseyn ali məktəbin ikinci korpusuna həftədə cəmi bir dəfə getməli olurmuş. İşin tərsliyindən hadisə baş verən gün Hüseyn Neft Akademiyasının məhz faciənin yaşandığı korpusunda olub. Pərvanəyə hadisə barədə xəbəri qohumlarından biri çatdırır: "AZİ"ni mühasirəyə alıblar, camaatı qırıblar, ancaq sən narahat olma..." Nə narahat olma? Az qalır Pərvanənin başına hava gəl-



sin. Tez özünü ADNA-nın hadisə baş verən korpusunun yanına çatdırır. Ancaq hamı kimi onu da içəri buraxmırlar. Sən demə, həmin vaxt Hüseyn də onun mobil telefonuna zəng vururmuş ki, "narahat olma, sağ-salamatam" desin. Ancaq Pərvanə işdən o qədər hövllü çıxır ki, mobil telefonunu da unudur. Binaya buraxılmayacağını görəndən sonra isə bir telefon tapıb Hüseynə zəng vurur. Onun sağ-salamat olduğunu bilib özünə gəlir. Sonradan bilir ki, Hüseyn də həmin vaxt stres keçiribmiş: "Rəngi ağappaq olmuşdu..."

Hadisəni törədən Fərda Qədirov birinci mərtəbədən dördüncü mərtəbəyədək qarşısına çıxanı vurub. Həmin vaxt Hüseyn tələbə yoldaşları ilə birlikdə ikinci mərtəbədə olublar. Terroristin üçüncü mərtəbəyə çıxdığını görüb, dərhal pəncərəni sındıraraq binadan çıxıblar. Oğlanlar əvvəlcə xanımları çıxarıblar, sonra da özləri çıxıblar. Hüseyn ADNA faciəsindən bədəninə düşən kiçik sıyrıqlarla çıxıb...

BİR MİLLƏT!

Gəlirik əsas məsələyə. Soruşuram ki, Azərbaycanla Türkiyə arasında kiçicik sorunlar yaşananda neyləyirdiz? Hər ikisi diplomatik cavab verir. Pərvanə: "Hüseyn də, mən də dedik ki, biz qardaş dövlətik. Qardaşlar arasında kiçik problemlər olur. Olmasa, daha yaxşı olar. Bizi gözü götürməyənlər çoxdur, aramızı vururlar. Türkiyənin Ermənistanla sərhədi açılmayıb, açılacağına da inanmıram. Sərhəd qapıları Qarabağ qaytarılandan sonra açılacaq. Bir də bayraq məsələsi var. Bursada Azərbaycan bayraqlarının stadiona girməsinə FİFA qadağa qoymuşdu. Düzdü, FİFA sonradan belə qadağa qoymadığını dedi. Ancaq elə də deməlidi, başqa nə deyəcək ki?! Qadağanı FİFA qoymuşdu. Bakıdakı Türkiyə bayraqları isə yuyulmağa aparılmışdı. Yuyub, yerinə asdılar..."

Hüseyn: "Əgər Gül və Ərdoğan bəyanat verdilərsə ki, Qarabağ sorunu çözülmədən Türkiyə sərhəd qapılarını açmayacaq, bu, həqiqətən də belədir. Nə olsun ki, protokollar imzalanıb?!"

Onlar Türkiyə-Azərbaycan arasında hansısa problem yaşananda bunu müzakirəyə çevirsələr də, mübahisə etmirlər.

Hüseynin valideynləri tez-tez, daha doğrusu, hər gün onlara zəng vurur. Hər məsələdən danışırlar. Son vaxtlarda Azərbaycan-Türkiyə münasibətlərindən də danışırlar. Gəliniylə oğlu siyasətçi kimi danışsa da, deyəsən, ən doğru sözü Hüseynin atası Hacı Doğan deyir: "Azərbaycanla Türkiyənin arasını vurmağa çalışanları qınayıram!.."

Pərvin ABBASOV



P.S. Az qala yadımdan çıxmışdı, gələn ilin mayında Pərvanənin ata-anası, özü və Hüseyn Berlinə getməyi planlaşdırırlar. Doğan ailəsi onları qonaq çağırıb...

LENT.AZ

USAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun
məktəblilər üçün
əlavəsi

November is Foreign Languages Month!

Discover Languages
Discover the World!

There are many benefits to learning another language or about another culture. In today's global economy, we work with people from different countries on a daily basis, and these skills can lead to more effective communication. Including the study of foreign languages in our school's curriculum increases academic achievement and stimulates creative expression. Additionally, we build more positive relationships with others if we have an understanding of their heritage. Acquiring new language skills and cultural appreciation leads to a stronger sense of mutual respect and harmony in the world.

English Department
Dunya School

DUNYA SCHOOL

Foreign Languages Month: November 2009







1. November 5 will be a "HAPPY DAY". Everyone will speak English on that day. 7A will put English words, phrases and sentences with translation on the walls for learning purposes. ALL teachers and students will be encouraged to speak English.

2. 4A and 4B will compete to decorate the English Room No 2 with pictures, flags, written descriptions, poems, etc.

3. All students will be encouraged by their English teachers to write articles, poems, news for Khazar News.

4. 8A and 7A will compete to present Book Exhibition on the main floor – books, magazines, newspapers (real ones or copies from internet), booklets, etc. 2 students from 7A & 8A will be on duty daily to monitor the exhibition.

5. 5B will find out what is for lunch (in advance) and write the menu in the languages they are studying. They will put the menu on the wall everyday.

6. 9B will find out whose birthday (famous people) is in November. On that day they will put up information on the wall about that person.

7. 7A will do a project about English Speaking Countries and put it on the wall.

8. 7A will write their own Spooky Tales, put them on the wall and submit them for Khazar News.

9. 8B will do a group project "Etiquette in different countries" and put it up on the wall.

10.9B will present a group project about "Peace Corps"

11. Students will sing karaoke songs daily during tea and lunch breaks on the main floor.

12. 9B will present poems and monologues about Morocco in English and Arabic.

13. Poem Competition will be among 4th graders.

14. All classes will learn the song "WE ARE THE WORLD" to chorus at the closing ceremony. Award certificates and prizes will be presented to the best judged work.

HOW WE IMPROVE OUR ENGLISH

November is "Foreign Languages Month" in Dunya School. In this month, different groups do projects and show them to the school.

Our group has done some projects, too. I made a slide show about the 'Seven Wonders of the World' and Aydin spoke about the 'Great Pyramid of Giza', which was built for King Khufu as a tomb.

Next to speak was Nargiz. She gave us some information about the 'Hanging Gardens of Babylon' and the 'Temple of Artemis'.



The 'Temple of the Statue of Zeus at Olympia' was built in 466-456 BC, and Miraga told us about it. After this, Aygun gave us the history of the 'Colossus of Rhodes'.

Finally, I spoke about the 'Mausoleum of Halicarnassus' which was 45 metres high. The seventh wonder was the 'Lighthouse of Alexandria'. For many centuries this was one of the highest structures on Earth.

We also did a project on Swine 'Flu. We wanted students to have some information before the holidays started. Aydin and Miraga described the symptoms of this illness. I hope that the project had the effect we wanted.



Then class 7A came in and showed us their project "Can you guess my nationality?" We guessed their nationalities – they presented an Indian, a Chinese, a New Zealander, an American, an Italian and a Spaniard. It was a thrilling project and Aydan, Sima, Turkan, Togrul, Fatima and Aslan played their parts very well. We enjoyed it a lot - and it was all in perfect English!

To finish up, Aygun and Nargiz sang a song – 'Tell Me Why'. – It was great! This beautiful song was a very good end to our project.

By: Gulchin ISAYEVA,
Class 8b



ŞAGİRDLƏRLƏ "KEÇMİŞƏ SƏYAHƏT"

Sinif rəhbəri olduğum IV[b] sinif şagirdləri ilə müzeyə çevrilmiş qədim Qala kəndinə ekskursiyaya getdik. Onlar xalqımızın keçmiş adət-ənənələri, həyat tərzi, məişət şəraiti ilə yaxından tanış oldular. Səyahətdən sonra uşaqlar öz təəssüratlarını yazdılar.



Fərəzadə Ülvi: Sinif rəhbərimiz bizə şənbə günü Qala kəndinə ekskursiyaya gedəcəyimizi bildirdi. Biz bu xəbəri eşidəndə çox sevindik. Səbirsizliklə həmin günü gözlədik.

Şənbə günü gəlib çatdı. Biz yola düşdük və Qala kəndinə gəlib çatdıq. Bizi orada çox mehribanlıqla qarşıladılar. Bizə araxçın hədiyyə etdilər və bildirdilər ki, siz bu araxçınlarla keçmişə gedəcəksiniz... Onlar bizə keçmişdə insanların hansı işlə məşğül olduqlarını başa saldılar. Biz Qala kəndi haqqında maraqlı məlumat topladıq. Orada gildən qablar düzəltdik, xəmir işləri gördük və toxuculuqla məşğul olduq. Mənim üçün isə ən maraqlı olan gildən qablar düzəltmək oldu,..

Mirzəyev Yusif: Mən Qala kəndində öyrəndim ki, keçmişdə evlər ikiotaqlı olub: mətbəx və qonaq otağı. Bu səyahətimdə mənim üçün ən yaddaqalan xalça toxumağım oldu. Növbəti arzum Botanika bağına getməkdir.

Nemətova Nurlana: Qala kəndi mənim çox xoşuma gəldi. Kəndə çatanda bizi qruplara ayırdılar. Bundan sonra biz qalanın yanına gəldik və oraya daxil olub lavaş bişirməyə başladıq. Bizə məlumat verdilər ki, keçmişdə insanlar qablarını gildən düzəldirdilər. Biz də gildən qablar düzəltdik. Bu ekskursiyada hər şey xoşuma gəldi. Mənim arzum budur ki, belə yerlərə tez-tez gedək.

Mollayev Murad: Bu eks-



kursiyada mənim üçün hər şey maraqlı oldu. Ən çox xoşuma gələn isə Qala kəndindəki Diyarşünaslıq muzeyi oldu. Bizə orada çox maraqlı məlumatlar verdilər. Mənim arzum Azərbaycandakı bütün muzeylərdə olmaq və maraqlı məlumatlar əldə etməkdir.

Yusifli Firudin: Həqiqətən, bizim bu səyahətimiz çox maraqlı keçdi. Yadımda qalan ən maraqlı hadisə isə gildən qab düzəltməyimiz oldu. Ən böyük arzum Qarabağdakı tarixi abidələri görməkdir.

Tahiri Fatimə: Müəllimə bizə elan edəndə ki, Qala kəndinə gedəcəyik, hamı sevindi. Biz maraqlanırdıq ki, ora necə yerdir. Nəhayət ki, Qala kəndinə çatdıq. Biz orada öyrəndik ki, keçmişdə hamı varlı deyildi. Varlılar ikimərtəbəli, yoxsullar, orta səviyyəli ailələr isə birmərtəbəli evlərdə yaşayırdılar. Keçmişdə hamı öz zəhməti ilə yaşayırdı. Onlar qab düzəltmək üçün gildən istifadə edirdilər və düzəltdikləri qab tez bərkisin deyə onu günəş şüalarının altına qoyurdular. Bir dəfə təsadüfən gildən düzəlmiş qab ocağın üstünə düşür və bu zaman görürlər ki, ocaq gili günəşdən tez bərkidirmiş. Mənim üçün orada ən maraqlı iş xalça toxumaq oldu. Arzum isə Azərbaycanın tarixi abidələrindən Şirvanşahlar sarayı, Alban kilsəsi, Şəki Xan sarayı,Gəncə qalası və başqa yerləri görməkdir.



Nəsibov Fərid: Bu ekskursiyada hər şey mənim çox xoşuma gəldi. Və mən bir daha başa düşdüm ki, yurdumuzun hər bir yeri tarixi abidələrlə zəngindir...

Qasımlı Nərmin: Mən Qala kəndində özümü sanki keçmişdəki kimi hiss etdim. Orada bir quyu gördük və bizə məlumat verdilər ki, əvvəllər bu quyuda sünbül saxlanılırmış. Uşaqlarla birlikdə çörək bişirdik, xalça toxuduq. Onu da öyrəndik ki, əvvəllər buradan karvan yolu keçirmiş. "Keçmişə səyahətimiz" çox maraqlı oldu.

Quliyev Nahid: Biz Qala kəndində keçmişdə yaşayan insanların məşğuliyyəti haqqında maraqlı məlumatlar topladıq. Sonra isə Diyarşünaslıq muzeyinə getdik. Bu muzeyin başqa muzeylərdən fərqi açıq havada olması idi. Yerin altından çıxarılmış nadir tapıntılar və buradakı mağara hamımızı təəccübləndirdi. Mən bu müzeyə bir daha getmək istəyirəm və bizi oraya aparan sinif rəhbərimiz Şəhla müəlliməyə təşəkkür edirəm.



Şəhla NƏBİYEVA
4[b] sinif rəhbəri

ELAN!

TƏLƏBƏLƏRİN NƏZƏRİNƏ!

Xəzər Universitəsi tələbələr arasında **"İngilis dilində şer və mahnının ən yaxşı ifasına görə"** müsabiqə elan edir. Şeir və mahnı tək və qrup halında ifa edilməklə 10 (on) dəqiqədən artıq olmamalıdır.

Arzu edənlər öz İngilis dili müəllimlərinə müraciət edə bilərlər. Fərdi hazırlıq məşğələləri hər bir qrupun İngilis dili müəllimləri tərəfindən qabaqcadan razılaşdırılmış cədvəl üzrə aparılır. Qaliblər "Xəzər"in təsis etdiyi mükafatları alacaqlar.

Müsabiqə 2009-cu il dekabrın 21-də saat 14:00- da universitənin Akt zalında keçiriləcəkdir.

Birinci yer - 1 mükafat
İkinci yer - 2 mükafat
Üçüncü yer - 2 mükafat

Təşkilat komitəsi:

Xəzər Universitəsi İngilis Dili və Ədəbiyyatı Departamenti;
Xəzər Universitəsi Ictimaiyyət və İş Dünyası ilə Əlaqələr Departamenti

YENİ QRANT PROQRAMLARI

Avstriya Respublikasının Federal Elm və Tədqiqat Nazirliyi tərəfindən 2010-2011-ci tədris ili üzrə xarici tələbələr və tədqiqatçılar üçün aşağıdakı ixtisaslar üzrə qrant proqramları elan edilib:

- təbiət elmləri;
- texniki elmlər;
- tibb;
- kənd təsərrüfatı, meşəçilik və baytarlıq;
- sosial elmlər, hüquq və iqtisadiyyat;
- humanitar elmlər və teologiya;
- incəsənət.

Qrantlar üçün müraciət etmək istəyən namizədlər **www.grants.at** internet səhifəsindən müvafiq bölmələri seçərək ətraflı məlumat əldə edə bilərlər.

OXUCULARIN NƏZƏRİNƏ!

"XƏZƏR XƏBƏR" JURNALINA 2010-cu İL ÜÇÜN ABUNƏ ELANI

Əziz oxucular!

"Xəzər Xəbər" jurnalı yeni ildə sizin görüşünüzə yeni həcmdə və yeni görkəmdə gələcək. Jurnalın dövriliyi də dəyişəcək.

"Xəzər Xəbər" jurnalı ayda bir dəfə (avqust ayından başqa) 80 səhifə həcmində və rəngli çıxacaq.

"Xəzər Xəbər" jurnalında siz yenə Azərbaycan, türk, rus və ingilis dillərində maraqlı xəbərlər, təhsil yenilikləri və tələbə həyatına, mədəniyyət, turizm və idmana aid yazılar, orijinal bədii əsərlər oxuya biləcəksiniz.

"Xəzər Xəbər" jurnalına 2010-cu il üçün aşağıdakı ünvanlarda abunə yazılmaq (illik abunə haqqı 22 manatdır) olar:

- *"Azərpoçt" MMC-nin Bakı Mərkəzi poçtu (Üzeyir Hacıbəyov küçəsi, 36), tel.: 493-33-66*
- *1 saylı poçt (İstiqlaliyyət küçəsi, 35, İçərişəhər metrosu, İqtisadiyyat Universiteti ilə üzbəüz), Tel.: 492-58-40*
- *"Qasid" Açıq Səhmdar Cəmiyyəti (5-ci mikrorayon, Cavad xan küçəsi, 21, Memar Əcəmi metrosunun yanı, tel.: 493-14-06; 493-16-43*

2010-cu ilin yanvar ayından etibarən "Xəzər Xəbər" jurnalını pərakəndə satışda "Metro-Servis" MMC-nin Bakı metropoliteni stansiyalarındakı köşklərindən ala bilərsiniz.

"Xəzər Xəbər"ə abunə yazılın!
"Xəzər Xəbər"i oxuyun!
"Xəzər Xəbər"ə yazın!

KHAZAR VIEW

XƏZƏR XƏBƏR